RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 146 (10166) 15 avqust 2026-cı il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Bölgədə söz sahibi olan qüdrətli ordu



## Ali Baş Komandanın rəhbərliyi ilə sürətlə modernləşən və daha da güclənən Silahlı Qüvvələrimiz regionda sülhün, təhlükəsizliyin və sabitliyin əsas təminatçısıdır

Azərbaycanın vahid milli təhlükəsizlik sistemində Naxçıvan Muxtar Respublikasının müdafiəsi xüsusi və strateji önəm daşıyır. Naxçıvanın spesifik geostrateji mövqeyi, birbaşa quru bağlantısının olmaması və regional mühitdə mövcud olan hərbi-siyasi reallıqlar muxtar respublikanın təhlükəsizliyinə hər zaman xüsusi və həssas yanaşmanı zəruri edib. Çünki Naxçıvanın müdafiə qabiliyyətinin yüksək səviyyədə saxlanılması yalnız bu regionun daxili sabitliyi üçün deyil, bütövlükdə Azərbaycan dövlətinin təhlükəsizlik arxitekturası üçün həyati əhəmiyyət kəsb edir.

Bu səbəbdən bölgənin coğrafi və strateji xüsusiyyəti nəzərə alınaraq Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə Naxçıvanda Əlahiddə Ümumqoşun Ordunun yaradılması ölkəmizin hərb tarixində önəmli addım kimi dəyərləndirilir. Əlahiddə Ordu Azərbaycan Silahlı Qüvvələrinin mühüm tərkib hissəsi kimi fəaliyyət göstərir. Bu xüsusi hərbi strukturun təsisi muxtar respublikanın müdafiəsinin daha çevik, sistemli, müstəqil və operativ şəkildə təşkil edilməsinə şərait yaradır. Hərbi bölmələrin vahid komandanlıq altında cəmləşməsi, müdafiə tədbirlərinin koordinasiyasının dəqiqləşdirilməsi və şəxsi heyətin mütəmadi təlimlərə cəlb olunması Naxçıvanın müdafiə gücünü dayanıqlı müstəviyə çıxarıb. Əsas məqsəd ehtimal olunan hər hansı təhdid və ya təxribatın qarşısını dərhal, vaxtında və adekvat şəkildə almağa qadir olan çevik müdafiə mexanizmi formalaşdırmaqdan ibarətdir.

Naxçıvanın özünəməxsus dağlıq relyefi, mürəkkəb sərhəd zolaqları və xüsusi iqlim şəraitləri hərbi hazırlığın xüsusi taktiki tələblər üzrə aparılmasını zərurət halına gətirir. Dağ-meşə və relyef şəraitində döyüş aparmaq bacarıqları hərbi qulluqçulardan yüksək dözümlülük, çevik düşüncə və peşəkar bacarıqlar tələb edir. Bu baxımdan, son dövrlərdə Azərbaycan Ordusunun modernləşdirilməsi strategiyasına uyğun olaraq Naxçıvanda da əməliyyat (komando) birliklərinin yaradılması müdafiə sisteminin müasir standartlara tam uyğunlaşdırılmasının parlaq göstəricisidir. Xüsusi hazırlıq proqramları keçən komando qüvvələri mürəkkəb relyefdə, gecə və gündüz şəraitində müxtəlif xüsusi tapşırıqları icra etmək üçün təlimatlandırılır ki, bu da regiondakı hərbi qüvvələrin çevikliyini dəfələrlə artırır.

Muxtar respublikada hərbi infrastrukturun gücləndirilməsi istiqamətində növbəti tarixi addım avqustun 11-də atılıb. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Naxçıvan Muxtar Respublikasına səfərləri çərçivəsində Əlahiddə Ümumqoşun Orduda yeni təşkil edilmiş əməliyyat (komando) hərbi hissələrinə Döyüş bayraqlarının verilməsi mərasimində iştirak ediblər. Təqdim olunan Döyüş bayraqları hərbi hissələrin döyüş şərəfini, rəşadətini və dövlətə sədaqətini rəmziləşdirməklə yanaşı, muxtar respublikanın müdafiə potensialının yüksək səviyyəyə çatdırıldığını da nümayiş etdirir.

5



## Dövlətin ziyalıya qayğısı dünənə, bu günə və sabaha verilən qiymətdir

2019-cu ildə Prezident İlham Əliyevin və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın mədəniyyət və incəsənət xadimləri ilə geniş görüşü bu baxımdan tarixi faktdır. Həmin görüşdə ziyalıların mənzil, sosial təminat, yaradıcılıq imkanları, teatrların və digər mədəniyyət müəssisələrinin vəziyyəti ilə bağlı məsələləri də müzakirə olunmuşdu. Dövlətimizin başçısı tərəfindən görkəmli mədəniyyət xadimləri və gənc istedadlar üçün yaşayış imkanlarının yaradılması, yazıçılar üçün Yaradıcılıq Evinin bərpası kimi konkret məsələlər üzrə göstərişlərin verilməsi diqqətin praktik məzmununu nümayiş etdirir, ölkəmizdə ziyalıya qayğının sosial, institusional və yaradıcılıq dəstəyi ilə tamamlandığını göstərirdi.

Azərbaycan ziyalılarına diqqət və qayğıdan söhbət gedərkən ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın fəaliyyəti xüsusi qeyd olunmalıdır. Mehriban xanımın bu sahədə fəaliyyəti milli-mədəni irsin qorunması, Azərbaycan mədəniyyətinin beynəlxalq miqyasda tanıdılması, klassik irsin müasir dövrdə təbliği, yaradıcı insanlara dəstək və digər istiqamətlərə yönəlmişdir. Heydər Əliyev Fondunun layihələri ziyalılar üçün xüsusi əhəmiyyət daşıyır. Mehriban xanımın təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən bir çox layihə cəmiyyətdə ziyalıları ön plana çıxarır, onların ictimai həyatda aktiv iştirakını təmin edir və nüfuzunu yüksəldir.

6

## Cənubi Qafqazda davamlı sülh

### Azərbaycanın qətiyyəti ilə regionda təhlükəsizlik və iqtisadi inteqrasiya sahəsində mühüm irəliləyişlər əldə olunub



Vətən müharibəsindən dərhal sonra Ermənistana təkmil sülh modeli təklif edən rəsmi Bakı ötən müddətdə sülh gündəliyini, sadəcə, diplomatik bəyanatlarla deyil, real addımlarla dəstəklədiyini sübut edib. 8 avqust Vaşinqton Zirvə Görüşünün və sülh sazişinin mətninin paraflanmasının ardından Bakı tərəfindən atılan praktiki addımlar bunun bariz nümunəsidir:

Ağ Evdə keçirilən Azərbaycan-Ermənistan Zirvə Görüşü ilə bölgədə de-fakto sülhün təməli qoyuldu. Vaşinqton Sammitinin birillik ildönümündə Prezident İlham Əliyev ABŞ liderinə ünvanladığı məktubunda zirvə görüşünün rolunu xüsusi qiymətləndirərək yazıb: "Bir il əvvəl Siz öz üzərinizə məsul tarixi missiyanı götürərək Cənubi Qafqazda dayanıqlı sülhün bərqərar edilməsi, Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması məsələsində dönüş nöqtəsi yaratdınız. Qətiyyətiniz və sarsılmaz iradəniz sayəsində Siz üç onillik ərzində davam edən münaqişənin tamamilə sona çatmasına, xalqlarımız üçün barışığın və qarşılıqlı tərəfdaşlıq dövrünün əsasını qoymağa nail oldunuz".

4

## Azərbaycan və Ermənistan elektrik enerjisinin ixracı və idxalı sahəsində də əməkdaşlıq edə bilər



Azərbaycan öz coğrafi mövqeyindən istifadə etməklə "Şərq-Qərb" və "Şimal-Cənub" marşrutlarını birləşdirən əsas platformalardan birinə çevrilir. Ermənistan isə uzun müddət davam edən regional təcriddən çıxmaq və yeni nəqliyyat-iqtisadi əlaqələr qurmaq kimi şans qazanıb.

Azərbaycanın Ermənistana ixracının 2026-cı ilin ilk yarısında əhəmiyyətli şəkildə artması iqtisadi əlaqələrin genişləndiyini göstərib. İyulun 13-də Şuşada "Sülhün təşviqində medianın missiyası: Həqiqətin bərpası və etimadın yenidən qurulması" mövzusunda IV Şuşa Qlobal Media Forumunun açılış mərasimində Prezident İlham Əliyev vurğulayıb ki, Azərbaycan birtərəfli olaraq Ermənistana bütün tranzit məhdudiyyətlərini aradan qaldırdı və hazırda biz bunu etməklə 40 min tondan artıq müxtəlif yüklər Rusiya, Qazaxıstan və digər yerlərdən Ermənistana daşındı: "Bundan əlavə, Azərbaycan özü Ermənistana neft məhsullarını təchiz etməyə başlayıb və bildiyimə görə, artıq 10 min tondan çoxdur. Bu, xüsusən də indi - bir çox ölkələrin yanacağa çıxışdan əziyyət çəkdiyi dövrdə baş verir və Ermənistan Azərbaycanı etibarlı mənbə kimi görür. Əgər belə olmasaydı, ola bilsin, bu gün onlar bütün dünyada benzin və dizel yanacağı axtarmalı olacaqdılar".

4

## Xankəndinin Böyük qayıdış səhifəsi



2023-cü ildə keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində Azərbaycanın ərazi bütövlüyü və dövlət suverenliyi tam bərpa olundu. Xankəndidə Dövlət bayrağının ucaldılması isə bu tarixi Zəfərin ən parlaq zirvəsinə yüksəldi. Beləliklə, yeni ünvanlara qayıdış başladı. Bərpa işləri yekunlaşdıqdan sonra bu il xankəndililərə də xoş xəbər verildi. Yeni ilin ilk ayında 162 nəfərdən ibarət 36 ailə Xankəndiyə qədəmlərini qoydular. Bu baxımdan, bu ilin həm də xankəndililərin ili olduğunu desək yanılmarıq.

Avqustun 14-də də Xankəndi şəhərinə növbəti köç karvanı yola salınıb. Bu mərhələdə Xankəndiyə 22 ailə - 102 nəfər köçürülüb. Köç edən ailələr respublikanın müxtəlif ərazilərində, əsasən yataqxana, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış sakinlərdən ibarətdir. Doğma yurda qayıdan sakinlər göstərilən dövlət qayğısına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya, həmçinin Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərə minnətdarlıqlarını ifadə edib, Vətən uğrunda canlarından keçən şəhidlərə rəhmət diləyiblər.

4

# "Seleksiya nailiyyətləri haqqında", "Dövlət rüsumu haqqında", "Lisenziyalar və icazələr haqqında" və "Texniki tənzimləmə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 10-cu, 11-ci, 15-civə 24-cü bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Seleksiya nailiyyətləri haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 4, maddə 269 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-ci maddənin birinci hissəsi üzrə:

1.1.1. beşinci abzas aşağıdakı redaksiyada verilsin:

"seleksiya və toxumçuluq sahəsində informasiya ehtiyatı (bundan sonra - Reyestr) - seleksiya nailiyyətləri (sortlar və hibridlər, cinslər), qeydiyyata alınmış toxum əməliyyatçıları, seleksiya nailiyyətlərindən istifadə ilə əlaqədar bağlanmış müqavilələr və toxumluq əkinlər barədə məlumatların (qeydlərin) məcmusu;

altıncı abzasda "dövlət reyestrinə" sözləri "Reyestrə" sözü ilə əvəz edilsin;

1.2. 12-ci maddə üzrə:

1.2.1. birinci hissədə "dövlət reyestrində" sözləri "Reyestrdə" sözü ilə əvəz edilsin;

1.2.2. ikinci hissədə "dövlət reyestrinə" sözləri "Reyestrə" sözü ilə əvəz edilsin;

1.2.3. aşağıdakı məzmunda üçüncü hissə əlavə edilsin:

"Reyestr müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən elektron qaydada aparılır.";

1.3. 15-ci maddənin birinci hissəsində "Dövlət reyestrinə" sözləri "Reyestrə" sözü ilə əvəz edilsin;

1.4. 16-cı maddənin ikinci hissəsində "orqanda" sözü "orqan (qurum) tərəfindən Reyestrdə" sözləri ilə əvəz edilsin;

1.5. 18-ci maddənin birinci hissəsində "dövlət reyestrində" sözləri "Reyestrdə" sözü ilə əvəz edilsin;

1.6. 24-cü maddənin ikinci hissəsində "reyestrdə" sözü "Reyestrdə" sözü ilə əvəz edilsin;

1.7. 26-cı maddənin birinci və üçüncü hissələrində "dövlət reyestrinə daxil edilmiş" sözləri "Reyestrdə qeydiyyata alınmış" sözləri ilə əvəz edilsin;

1.8. 33-cü maddənin birinci hissəsi üzrə:

1.8.1. ikinci abzasda "qeydiyyatda olan" sözləri "Reyestrdə qeydiyyata alınmış" sözləri ilə əvəz edilsin;

1.8.2. üçüncü abzasda "bilərəkdən başqa qeydiyyatda olan sortun və cinsin adı" sözləri "Reyestrdə qeydiyyatda olan başqa sortun və cinsin adının" sözləri ilə əvəz edilsin;

1.8.3. dördüncü abzasa "verilən ad" sözlərindən sonra "Reyestrdə" sözü əlavə edilsin;

1.8.4. səkkizinci abzasda "dövlət reyestrində" sözləri "Reyestrdə" sözü ilə əvəz edilsin.

**Maddə 2.** "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 740 (Cild I); 2024, № 1, maddələr 10, 16, № 6 (I kitab), maddə 637, № 7, maddələr 747, 751, 775, № 8, maddə 933, № 11, maddə 1187, № 12 (II kitab), maddə 1351; 2025, № 1, maddə 1, № 2, maddə 101, № 4 (I kitab), maddələr 318, 322, № 5, maddə 433, № 6, maddələr 521, 524, № 7, maddə 626, № 12 (I kitab), maddələr 1118, 1129; 2026, № 1, maddələr 8, 13, 20; Azərbaycan Respublikasının 2026-cı il 26 may tarixli 413-VIIQD nömrəli Qanunu) aşağıdakı məzmunda 18.89-cu maddə əlavə edilsin:

"18.89. Toxumçuluq sahəsində fəaliyyət göstərən toxum əməliyyatçılarının qeydiyyatına və toxumlara sortluq və səpin keyfiyyətlərini təsdiq edən sertifikatların verilməsinə görə:

18.89.1. seleksiya və toxumçuluq sahəsində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemindən çıxarışın verilməsi - 50 manat;

18.89.2. seleksiya və toxumçuluq sahəsində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemindən çıxarışın dublikatının verilməsi - 10 manat;

18.89.3. toxumlara sortluq və səpin keyfiyyətlərini təsdiq edən sertifikatların verilməsi (bir sənəd) - 25 manat.".

**Maddə 3.** "Lisenziyalar və icazələr haqqında"Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 632 (Cild I); 2024, № 6 (I kitab), maddə 631, № 7, maddələr 747, 751, № 8, maddə 933; 2025, № 1, maddə 16, № 3, maddə 215, № 4 (I kitab), maddə 314, № 5, maddə 433, № 6, maddə 524, № 7, maddə 626, № 8, maddə 733; Azərbaycan Respublikasının 2026-cı il 26 may tarixli 413-VIIQD nömrəli Qanunu) 3 nömrəli Əlavə - "Sahibkarlıq fəaliyyətinə verilən icazələrin siyahısı"nın 87-ci maddəsinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 88-ci maddə əlavə edilsin:

"88. toxum əməliyyatçılarının qeydiyyata alınmasına dair seleksiya və toxumçuluq sahəsində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemindən çıxarış.".

**Maddə 4.** "Texniki tənzimləmə haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 11, maddə 1679 (Cild I); 2025, № 6, maddə 522) aşağıdakı məzmunda 5.4-1-ci maddə əlavə edilsin:

"5.4-1. Bu Qanun bitki sortlarının toxumlarına dair məcburi tələblərə şamil edilmir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 iyul 2026-cı il*

# "Büdcə sistemi haqqında", "Sığorta fəaliyyəti haqqında" və "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci, 16-cı və 27-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 10, maddə 584 (Cild I); 2025, № 1, maddə 6, № 8, maddə 739; 2026, № 3, maddə 203) aşağıdakı məzmunda 29.6-cı maddə əlavə edilsin:

"29.6. "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Azərbaycan Respublikasının Hesablama Palatası Naxçıvan Muxtar Respublikası büdcəsinin layihəsinə və icrasına, həmçinin müvafiq qanunların layihələrinə və illik hesabatlara dair rəy verir.".

**Maddə 2.** "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 3, maddə 144 (Cild I); 2025, № 4 (I kitab), maddə 318, № 5, maddə 432, № 12 (I kitab), maddə 1118) 6.2.10-cu maddəsinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 6.2.11-ci maddə əlavə edilsin:

"6.2.11. "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş vəzifələrin həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikasının Hesablama Palatasına.".

**Maddə 3.** "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 9, maddə 1820 (Cild I); 2024, № 12 (I kitab), maddə 1281; 2026, № 1, maddə 16, № 3, maddə 210) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.0.3-cü maddəyə "büdcəsinin," sözündən sonra "Naxçıvan Muxtar Respublikası büdcəsinin," sözləri əlavə edilsin;

3.2. 6.0.2-ci maddəyə "büdcəsi" sözündən sonra ", Naxçıvan Muxtar Respublikasının büdcəsi" sözləri əlavə edilsin;

3.3.7-ci maddə üzrə:

3.3.1. 7.0.1-ci, 7.0.2-ci, 7.0.3.1-ci və 7.0.3.2-ci maddələrə "büdcəsinin" sözündən sonra ", Naxçıvan Muxtar Respublikası büdcəsinin" sözləri əlavə edilsin;

3.3.2. 7.0.3.3-cü maddəyə "büdcəsindən" sözündən sonra ", Naxçıvan Muxtar Respublikasının büdcəsindən" sözləri əlavə edilsin;

3.3.3. 7.0.8-ci maddədə "sirri" sözü"və sığorta sirrinin qorunmasını təmin edir" sözləri ilə əvəz edilsin;

3.4. 8-ci maddə üzrə:

3.4.1. 8.0.3-cü maddəyə "büdcəsinin" sözündən sonra ", Naxçıvan Muxtar Respublikası büdcəsinin" sözləri, "formada" sözündən sonra ", həmçinin bu Qanunun 8.0.15-1-ci maddəsində göstərilən informasiya sistemi vasitəsilə" sözləri əlavə edilsin;

3.4.2. 8.0.6-cı maddəyə "keçirilməsi" sözündən sonra ", habelə bu Qanuna uyğun olaraq büdcələrin layihələrinə və icrasına dair rəylərin hazırlanması" sözləri əlavə edilsin;

3.4.3. 8.0.7-ci maddədə "və bank" sözləri ", bank və sığorta" sözləri ilə əvəz edilsin;

3.4.4. aşağıdakı məzmunda 8.0.15-1-ci maddə əlavə edilsin:

"8.0.15-1. dövlət auditi ilə bağlı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən yaradılan informasiya sisteminə sahiblik edir və öz fəaliyyətini həyata keçirərkən həmin sistemdən istifadə edir;";

3.5. 11.1-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Hesablama Palatasının üzvləri dövlət auditoru hesab edilirlər.";

3.6. 14.0.8-ci maddəyə "Məclisinə" sözündən sonra "və Naxçıvan Muxtar Respublikası üzrə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə" sözləri əlavə edilsin;

3.7. 21.12-ci maddəyə "büdcəsindən" sözündən sonra ", Naxçıvan Muxtar Respublikasının büdcəsindən" sözləri əlavə edilsin;

3.8. 23.1.1-ci maddəyə hər iki halda "büdcəsinin" sözündən sonra ", Naxçıvan Muxtar Respublikası büdcəsinin" sözləri əlavə edilsin;

3.9. 24.1-ci maddəyə hər iki halda "büdcəsinin" sözündən sonra ", Naxçıvan Muxtar Respublikası büdcəsinin" sözləri, "layihələrinə və" sözlərindən sonra "illik" sözü əlavə edilsin;

3.10. 32-ci maddə üzrə:

3.10.1. adından "kənar dövlət maliyyə nəzarəti" sözləri çıxarılsın;

3.10.2. 32.1-ci maddədə "və bank" sözləri ", bank və sığorta" sözləri ilə əvəz edilsin;

3.10.3. 32.2-ci maddəyə "fəaliyyəti" sözündən sonra ", həmçininbu Qanuna uyğun olaraq büdcələrin layihələrinə və icrasına dair rəylərin hazırlanması" sözləri, "büdcəsinin" sözündən sonra ", Naxçıvan Muxtar Respublikası büdcəsinin" sözləri əlavə edilsin və həmin maddədə "və bank" sözləri ", bank və sığorta" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 iyul 2026-cı il*

# "Seleksiya nailiyyətləri haqqında", "Dövlət rüsumu haqqında", "Lisenziyalar və icazələr haqqında" və "Texniki tənzimləmə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 14 iyul tarixli 456-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Seleksiya nailiyyətləri haqqında", "Dövlət rüsumu haqqında", "Lisenziyalar və icazələr haqqında" və "Texniki tənzimləmə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 14 iyul tarixli 456-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Seleksiya nailiyyətləri haqqında" Azərbaycan Respublikası Qanununun 12-ci maddəsinin üçüncü hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 12-ci maddəsinin üçüncü hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi nəzərdə tutulur;

1.3. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun 18.89.1-ci və 18.89.2-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.4. həmin Qanunun 18.89.1-ci və 18.89.2-ci maddələrində "orqanın (qurumun) informasiya sistemi" dedikdə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin "Elektron kənd təsərrüfatı" informasiya sistemi nəzərdə tutulur;

1.5. "Lisenziyalar və icazələr haqqında"Azərbaycan Respublikası Qanununun 3 nömrəli əlavəsinin 88-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.6. həmin Qanunun 3 nömrəli əlavəsinin 88-ci maddəsində "orqanın (qurumun) informasiya sistemi" dedikdə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin "Elektron kənd təsərrüfatı" informasiya sistemi nəzərdə tutulur.

2. "Seleksiya nailiyyətləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 17 yanvar tarixli 538 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 4, maddə 270 (Cild I) 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. ikinci abzasda "maddəsində nəzərdə tutulmuş "Azərbaycan Respublikasının" sözləri "və 12-ci maddəsinin üçüncü hissəsində nəzərdə tutulmuş" sözləri ilə əvəz edilsin;

2.2. üçüncü abzasda "və 13-cü maddələrində, 14-cü maddəsinin üçüncü hissəsində" sözləri "maddəsinin birinci hissəsində, 13-cü maddəsində, 14-cü maddəsinin üçüncü hissəsində, 16-cı maddəsinin ikinci hissəsinin ikinci cümləsində" sözləri ilə əvəz edilsin;

2.3. dördüncü abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda beşinci abzas əlavə edilsin:

"həmin Qanunun 12-ci maddəsinin üçüncü hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi nəzərdə tutulur.".

3. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 26 dekabr tarixli 621 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 767 (Cild I); 2024, № 7, maddə 788; 2025, № 2, maddə 109; 2026, № 3, maddə 214) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bəndə "7.2-ci" sözlərindən sonra ", 18.89.1-ci, 18.89.2-ci," sözləri əlavə edilsin;

3.2. 2.12-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.13-cü bənd əlavə edilsin:

"2.13. həmin Qanunun 18.89.1-ci və 18.89.2-ci maddələrində "orqanın (qurumun) informasiya sistemi" dedikdə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin "Elektron kənd təsərrüfatı" informasiya sistemi nəzərdə tutulur.".

4. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının 2016-cı il 15 mart tarixli 176-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 aprel tarixli 866 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 671 (Cild I); 2024, № 7, maddələr 788, 806, № 8, maddə 950; 2025, № 5, maddə 450, № 7, maddə 659) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.1-ci bənddə "və 9.2-ci maddələrində" sözləri ", 9.2-ci maddələrində və həmin Qanunun 3 nömrəli əlavəsinin 88-ci maddəsində" sözləri ilə əvəz edilsin;

4.2. 2.7-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.8-ci bənd əlavə edilsin:

"2.8. həmin Qanunun 3 nömrəli əlavəsinin 88-ci maddəsində "orqanın (qurumun) informasiya sistemi" dedikdə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin "Elektron kənd təsərrüfatı" informasiya sistemi nəzərdə tutulur.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 avqust 2026-cı il*

# Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında xarici ticarətin daha da liberallaşdırılması haqqında" 1997-ci il 24 iyun tarixli 609 nömrəli və "Azərbaycan Respublikası Gömrük Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" 2011-ci il 15 sentyabr tarixli 499 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 iyun tarixli 609 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 3, maddə 175 (Cild I); 2024, № 6 (I kitab), maddə 647, № 9, maddə 1001; 2026, № 1, maddə 28, №3, maddə 226) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydaları"nın 14.9-cu bəndinə "Maliyyə Nazirliyinə," sözlərindən sonra "Kənd Təsərrüfatı Nazirliyinə," sözləri əlavə edilsin.

2. "Azərbaycan Respublikası Gömrük Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 sentyabr tarixli 499 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 9, maddə 793 (Cild I); 2025, № 11, maddə 1018; 2026, № 2, maddə 123, № 3, maddələr 226, 228; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 4 avqust tarixli 751 nömrəli Fərmanı) 28.3-cü bəndinə "Maliyyə Nazirliyi," sözlərindən sonra "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi," sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 avqust 2026-cı il*

# "Büdcə sistemi haqqında", "Sığorta fəaliyyəti haqqında" və "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 10 iyul tarixli 440-VIIQD nömrəli Qanununun tətbiqi və "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1199-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 5 sentyabr tarixli 259 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Büdcə sistemi haqqında", "Sığorta fəaliyyəti haqqında" və "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə"Azərbaycan Respublikasının 2026-cı il 10 iyul tarixli 440-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Hesablama Palatası haqqında" Azərbaycan Respublikası Qanununun 8.0.15-1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 8.0.15-1-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Büdcə sistemi haqqında", "Sığorta fəaliyyəti haqqında" və "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 10 iyul tarixli 440-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1199-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 5 sentyabr tarixli 259 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 9, maddə 1822 (Cild I) 2.1-ci və 2.2-ci bəndlərinə "7.0.7-ci," sözlərindən sonra "8.0.15-1-ci," sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 avqust 2026-cı il*

# "Dövlət auditi" informasiya sisteminin yaradılması və bununla əlaqədar bir sıra məsələlərin tənzimlənməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Büdcə sistemi haqqında", "Sığorta fəaliyyəti haqqında" və "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 10 iyul tarixli 440-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. "Dövlət auditi" informasiya sistemi yaradılsın.

2. "Dövlət auditi"informasiya sistemi haqqında Əsasnamə"təsdiq edilsin (əlavə olunur).

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Hesablama Palatasına tövsiyə edilsin ki:

4.1. "Dövlət auditi" informasiya sisteminin (bundan sonra - DAİS) formalaşdırılması, aparılması, fəaliyyətinin təşkili və inkişaf etdirilməsi üçün zəruri tədbirlər görsün;

4.2. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birlikdə DAİS-in Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 iyun tarixli 718 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Hökumət buludu" (G-cloud) Konsepsiyası"na uyğun olaraq "Hökumət buludu"nda yerləşdirilməsi, aparılması və təkmilləşdirilməsi, habelə DAİS-in "Dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestri"nə və fərdi məlumatların informasiya sistemlərinin dövlət reyestrinə daxil edilməsi üçün tədbirlər görsün.

5. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi:

5.1. Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti ilə birlikdə, bu Fərmanın 2-ci hissəsi nəzərə alınmaqla, "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanının tələblərindən irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etsin;

5.2. bu Fərmanın 2-ci hissəsi ilə təsdiq edilən Əsasnamənin 3-cü hissəsində qeyd olunan məlumatların ilkin mənbəyini formalaşdıran dövlət orqanları (qurumları) ilə birlikdə həmin məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə olunmasını təmin etmək məqsədilə üç ay müddətində zəruri tədbirlər görsün və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 avqust 2026-cı il*

# "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Belarus Respublikasının Milli Statistika Komitəsi arasında statistika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2026-cı il iyunun 2-də Minsk şəhərində imzalanmış "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Belarus Respublikasının Milli Statistika Komitəsi arasında statistika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Belarus Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 avqust 2026-cı il*

*Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 14 avqust tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# "Dövlət auditi" informasiya sistemi haqqında Əsasnamə

### 1. Ümumi müddəalar

1.1. Bu Əsasnamə "Dövlət auditi" informasiya sisteminin (bundan sonra - DAİS) fəaliyyətinin hüquqi, təşkilati və texnoloji əsaslarını müəyyən edir.

1.2. DAİS rəqəmsal texnologiyalardan, o cümlədən informasiya-kommunikasiya texnologiyalarından istifadə yolu ilə bu Əsasnamənin 3-cü hissəsində qeyd olunan sənədlərin və məlumatların elektron mübadiləsi, avtomatlatlaşdırılmış emalı, verilənlərin auditi və təhlili vasitəsilə, kənar dövlət maliyyə nəzarətinin və büdcə prosesində iştirakdan irəli gələn fəaliyyətin təşkilinin səmərəliliyini, o cümlədən resurslara qənaət edilməsini, operativliyi və şəffaflığı təmin edir.

1.3. DAİS-in formalaşdırılmasının məqsədi Azərbaycan Respublikası Hesablama Palatasının (bundan sonra - Hesablama Palatası) kənar dövlət maliyyə nəzarəti və büdcə prosesində iştirakından irəli gələn fəaliyyətinin keyfiyyətinin davamlı artırılması ilə dövlət maliyyəsinin idarə edilməsinə töhfə verilməkdən ibarətdir.

1.4. DAİS-də yaradılan, əldə edilən, toplanılan informasiya və elektron sənədlər Azərbaycan Respublikasının mülkiyyətidir.

1.5. Fərdi məlumatların DAİS-də toplanılmasının və işlənilməsinin məqsədi bu Əsasnamənin 1.2-ci bəndində qeyd olunanları təmin etməkdir. Fərdi məlumatların DAİS-də toplanılması, işlənilməsi və mühafizəsi "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarına uyğun olaraq həyata keçirilir.

1.6. DAİS-in fəaliyyətinin təşkili, idarə olunması və təkmilləşdirilməsi ilə bağlı xərclər dövlət büdcəsi və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.

1.7. DAİS Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın (bundan sonra - Qaydalar) 2.1-ci bəndində qeyd edilən prinsiplər əsasında formalaşdırılır və fəaliyyət göstərir.

1.8. Bu Əsasnamə əldə olunması məhdudlaşdırılmış informasiyanı ehtiva edən informasiya ehtiyatlarına və sistemlərinə, habelə kritik informasiya infrastrukturu obyektlərinə həmin sahələri tənzimləyən normativ hüquqi aktlara uyğun olaraq tətbiq edilir.

1.9. DAİS-in sahibi və operatoru dedikdə Hesablama Palatası, iştirakçısı dedikdə bu Əsasnamədə nəzərdə tutulmuş informasiya proseslərində iştirak edən "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının Qanununda müəyyən edilən kənar dövlət maliyyə nəzarəti obyektləri (bundan sonra - qurumlar) nəzərdə tutulur.

1.10. Bu Əsasnamədə istifadə olunan anlayışlar "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda, Qaydalarda, həmçinin Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarında müəyyən edilmiş mənaları ifadə edir.

### 2. DAİS-in texniki-texnoloji infrastrukturu

2.1. DAİS-in texniki-texnoloji infrastrukturu aşağıdakı əsas komponentlərdən ibarətdir:

2.1.1. proqram-texniki vasitələr və proqram təminatı;

2.1.2. telekommunikasiya qurğuları və kanalları;

2.1.3. informasiya ehtiyatı və onu idarəetmə paneli;

2.1.4. ehtiyat nüsxələr;

2.1.5. istismaraqədərki formalaşma mühitləri.

2.2. Proqram-texniki vasitələr və proqram təminatı DAİS-in funksiyalarının həyata keçirilməsini, fəaliyyətinin etibarlılığını və təhlükəsizliyini, habelə DAİS-dən istifadəni və məlumat mübadiləsini təmin edir.

2.3. DAİS onun fəaliyyətinin etibarlılığını və təhlükəsizliyini, operativ və keyfiyyətli xidmətlər göstərilməsini, habelə məlumat mübadiləsini təmin edən dayanıqlı, mühafizəli, yüksəkötürücülü fiber-optik əsas və digər ehtiyat telekommunikasiya qurğularına və kanallarına malikdir.

2.4. Qurulma topologiyasına uyğun olaraq DAİS-in telekommunikasiya qurğuları və kanalları iki səviyyədə təşkil edilir:

2.4.1. DAİS-in fəaliyyətinin təşkili üçün müvafiq qurumdaxili telekommunikasiya qurğuları və kanalları - Hesablama Palatasının struktur bölmələri tərəfindən;

2.4.2. DAİS-in digər dövlət informasiya ehtiyatları və sistemləri ilə qarşılıqlı fəaliyyətinin təşkili üçün istifadə edilən telekommunikasiya qurğuları və kanalları - Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti (bundan sonra - XRİTDX) tərəfindən.

2.5. DAİS-də formalaşdırılan, ona daxil edilən və ötürülən məlumatlar DAİS-in informasiya ehtiyatında saxlanılır.

2.6. İdarəetmə paneli DAİS-in informasiya ehtiyatının formalaşdırılmasını və idarə edilməsini, o cümlədən həmin informasiya ehtiyatından istifadəni təmin edir.

2.7. Fəaliyyətinin dayanıqlılığının və təhlükəsizliyinin təmin edilməsi məqsədilə DAİS, o cümlədən DAİS-də toplanılan məlumatların ehtiyat nüsxələri "Hökumət buludu"nda saxlanılır.

2.8. DAİS-də aparılan dəyişikliklərin yoxlanılması istismaraqədərki formalaşma mühitlərində həyata keçirilir.

### 3. DAİS-ə daxil edilən və ötürülən məlumatlar

3.1. Hesablama Palatası tərəfindən "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş vəzifələrin icrası məqsədilə, habelə həmin Qanunun 8.0.3-cü, 8.0.6-cı və 8.0.7-ci maddələrində müəyyən edilmiş hüquqlara uyğun olaraq, bu Əsasnamənin 3.2-ci və 3.3-cü bəndləri nəzərə alınmaqla, DAİS-in iştirakçıları tərəfindən aşağıdakı sənədlər və məlumatlar (dövlət sirri təşkil edən sənəd və məlumatlar istisna olmaqla) DAİS-ə ötürülür:

3.1.1. "Hesablama Palatası haqqında" Azərbaycan Respublikası Qanununun 8.0.3-cü, "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 18.3-1-ci və 27.5-ci maddələrinə uyğun olaraq, kənar dövlət maliyyə nəzarəti obyektlərinin dövlət büdcəsinin və büdcədənkənar dövlət fondlarının büdcələrinin icrası ilə bağlı hesabat və məlumatları, o cümlədən büdcə təşkilatları və dövlət büdcəsindən maliyyə yardımı alan təşkilatların həmin vəsaitdən istifadə barədə müəyyən olunmuş qaydada, rüblük və ilin əvvəlindən artan yekunla funksional, iqtisadi və inzibati təsnifat üzrə hesabatları, büdcədənkənar dövlət fondlarının gəlir və xərclərinə dair hesabatları;

3.1.2. Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 17 mart tarixli 239 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət İnvestisiya Proqramının tərtibi, icrası, monitorinqi və qiymətləndirilməsi Qaydaları"nın 7.5-ci, 7.13-cü və 7.14-cü bəndləri üzrə müəyyən edilmiş hesabatlar;

3.1.3. dövlət vəsaiti hesabına həyata keçirilən dövlət investisiya layihələri, dövlət proqramları, strategiyaları, milli fəaliyyət planları, konsepsiyaları və bu kimi digər sənədlər çərçivəsində icra olunan tədbirlərin maliyyə göstəriciləri barədə məlumatlar;

3.1.4. "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla, satınalma planına, əsas şərtlər toplusunda yer alan şərtlərə və yekun protokola, həmçinin satınalma metodlarının tətbiqi barədə nəzarət orqanının verdiyi razılığa (bir mənbədən satınalma metodunun tətbiqinə dair verilmiş razılıqlara münasibətdə sorğu əsasında), iştirakçıların qiymət təkliflərinə dair məlumatlar, elektron qaydada bağlanılmış müqavilələr və onlar əsasında malların, işlərin və xidmətlərin hərəkətini təsdiq edən sənədlər;

3.1.5. kənar dövlət maliyyə nəzarəti tədbiri zamanı büdcə təşkilatı üzrə büdcə vəsaitinin kassa icrasına, həmin maliyyə əməliyyatlarının uçotunun aparılmasına, büdcə təşkilatlarının satın aldıqları mal, iş və xidmətlərə görə yaranan kreditor borclarının ödənilməsinə dair elektron sorğu əsasında mövcud olan elektron məlumatlar;

3.1.6. dövlət orqanlarının (qurumlarının), dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin (maliyyə bazarlarını tənzimləyən qanunlarla Mərkəzi Bankın nəzarət etdiyi subyektlər kimi müəyyən edilən hüquqi şəxslər istisna olmaqla), dövlət adından yaradılan publik hüquqi şəxslərin və dövlət büdcəsindən maliyyə vəsaiti alan digər təşkilatların bank hesablarına dair məlumatlar;

3.1.7. vergi ödəyicisi barədə məlumatlar (fiziki şəxsin soyadı, adı, atasının adı, hüquqi şəxsin adı, VÖEN-i, fəaliyyət növü, vergi ödəyicisi statusu, dövlət qeydiyyatına alındığı tarix, hüquqi ünvanı, cari və dəqiqləşdirilmiş hesabatların təqdimedilmə və təsdiqlənmə tarixi, təsdiqlənmiş vergi bəyannamələri), borc və artıqödəmə məlumatı, habelə kənar dövlət maliyyə nəzarəti tədbirinə aid predmetlər üzrə malların, işlərin və xidmətlərin təqdim olunması və əldə edilməsi ilə bağlı tərtib edilmiş elektron qaimə-fakturalar, elektron formada həyata keçirilən alqı-satqı barədə məlumatlar;

3.1.8. gömrük bəyannaməsinin nömrəsi, gömrük prosedurunun kodu, xarici ticarət iştirakçısının adı, VÖEN-i, xarici tərəfdaşın adı, sövdələşmə xüsusiyyətinə dair məlumat, malın adı, kodu və aparılmış əməliyyatın tarixi, miqdarı, mənşə ölkəsi, göndərən və alan ölkənin adı, çatdırılma şərtlərinə dair məlumat, valyuta, faktura və gömrük dəyəri, hesablanan və ödənilən gömrük ödənişləri, təsdiqlənmiş gömrük bəyannamələri, habelə gömrük borcları və depozit məbləğləri barədə məlumatlar;

3.1.9. torpaq sahəsi, əkin növü, subsidiyanın məbləği, verilmə tarixi barədə məlumatlar;

3.1.10. smeta-normativ və qiymətqoyma sistemi və onun əsasında qiymətqoymanın resurs metodu üzrə hesablamalar aparılması üçün göstəricilərə dair məlumatlar;

3.1.11. bu Əsasnamənin 3.1-ci bəndində qeyd edilən hüquqlara uyğun olaraq sorğu edilən digər məlumatlar və sənədlər.

3.2. DAİS-in digər dövlət informasiya ehtiyatları və sistemləri ilə inteqrasiyası, habelə məlumat mübadiləsinin təşkili Qaydalara uyğun olaraq həyata keçirilir.

3.3. DAİS ilə digər dövlət informasiya ehtiyatları və sistemləri arasında məlumat mübadiləsini real vaxt rejimində həyata keçirmək mümkün olmadıqda, sənədlər (məlumatlar) DAİS-ə aidiyyəti qurumlar tərəfindən təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təsdiq edilməklə onların elektron kabinetləri vasitəsilə daxil edilir.

3.4. DAİS-də formalaşdırılan sənədlər "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş tələblərə uyğun tərtib olunur və rəsmiləşdirilir.

### 4. DAİS-dən istifadə qaydası

4.1. Dövlət informasiya ehtiyatlarına və sistemlərinə malik olan qurumların DAİS-dən istifadəsi onların informasiya ehtiyatları və sistemləri Qaydaların 4-cü hissəsinə və "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Elektron Hökumət İnformasiya Sisteminə (bundan sonra - EHİS) inteqrasiya edildikdən sonra məlumat mübadiləsinin həyata keçirilməsi yolu ilə təmin edilir.

4.2. Dövlət informasiya ehtiyatlarına və sistemlərinə malik olmayan qurumların və digər hüquqi şəxslərin DAİS-dən istifadəsi onların elektron kabinetləri vasitəsilə təmin edilir. Bu halda qurumların və digər hüquqi şəxslərin rəhbər şəxsi tərəfindən DAİS-də qeydiyyatdan keçirilən və müvafiq hüquqlar verilən məsul şəxslər EHİS-in "Vahid Giriş" altsistemi vasitəsilə identikləşdirildikdən sonra avtomatik qaydada yaradılan elektron kabinetlərə daxil olaraq DAİS-dən istifadə edirlər.

### 5. Sahibin vəzifələri və hüquqları

5.1. DAİS-in fəaliyyətini təmin etmək üçün sahibin vəzifələri aşağıdakılardır:

5.1.1. DAİS-in idarə olunmasını təşkil etmək, təkmilləşdirilməsi və funksional imkanlarının artırılması istiqamətində tədbirlər görmək;

5.1.2. DAİS-in dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestrinə, o cümlədən fərdi məlumatların toplanıldığı, işlənildiyi və mühafizə edildiyi hallarda ("Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikası Qanununun 3.2-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla) isə fərdi məlumatların informasiya sistemlərinin dövlət reyestrinə daxil edilməsi və dövlət qeydiyyatından keçirilməsi üçün tədbirlər görmək;

5.1.3. fərdi məlumatların DAİS-də toplanılmasının, işlənilməsinin və mühafizəsinin bu sahədə Azərbaycan Respublikasının normativ hüquqi aktlarının tələblərinə uyğunluğunun təmin edilməsi üçün tədbirlər görmək;

5.1.4. DAİS-in təşkili və fəaliyyəti üzrə qiymətləndirmə aparmaq üçün Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə (bundan sonra - Nazirlik) zəruri şərait yaratmaq, o cümlədən normativ hüquqi aktların tələblərinə uyğun olmasına nəzarət etmək məqsədilə DAİS-ə çıxış, habelə onun texnoloji infrastrukturu ilə tanışlıq (baxış) və testetmə imkanlarını təmin etmək;

5.1.5. DAİS-in informasiya təhlükəsizliyini Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti (bundan sonra - DTX), XRİTDX və operator ilə, EHİS-in və "Hökumət buludu"nun informasiya təhlükəsizliyinə münasibətdə isə həmçinin Nazirliklə birlikdə təmin etmək;

5.1.6. DAİS-in informasiya təhlükəsizliyi məqsədilə mövcud və yarana biləcək təhlükələr və ya baş vermiş təhlükəsizlik insidentləri aşkar edildikdə, bu barədə məlumatları dərhal DTX-yə, XRİTDX-yə, EHİS-in və "Hökumət buludu"nun informasiya təhlükəsizliyinə münasibətdə isə həmçinin Nazirliyə təqdim etmək, habelə DTX, XRİTDX və Nazirlik tərəfindən bu barədə sorğular verildikdə həmin sorğuları dərhal, bu mümkün olmadıqda isə 24 saatdan gec olmayaraq cavablandırmaq;

5.1.7. DAİS-ə daxil edilmiş və (və ya) ötürülmüş məlumatların mühafizəsinin, habelə daxil edilmiş məlumatların aktuallığının, etibarlılığının, təhrifolunmazlığının, əlçatanlığının, tamlığının və konfidensiallığının təmin edilməsi ilə bağlı tədbirlər görmək;

5.1.8. DAİS-ə qarşı müdaxilə cəhdləri aşkar etdikdə, bu barədə məlumatları dərhal aidiyyəti hüquq mühafizə orqanına təqdim etmək;

5.1.9. DAİS-in, o cümlədən onun ehtiyat nüsxələrinin "Hökumət buludu"nda saxlanılmasının və aparılmasının təmin edilməsi üçün Nazirlik və operatorla birlikdə tədbirlər görmək;

5.1.10. EHİS-də yaradılan elektron imkanlar vasitəsilə istifadəçilərin tələbi əsasında onlar barəsində məlumatlarda aparılan düzəlişləri təsdiq və ya rədd etmək;

5.1.11. DAİS-ə çıxışı olan, habelə onun aparılmasında iştirak edən əməkdaşlarını təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təmin etmək;

5.1.12. aidiyyəti qurumların DAİS-in fəaliyyəti ilə bağlı sorğularını vaxtında və hərtərəfli cavablandırmaq, habelə qeyd edilən sorğular əsasında zəruri məlumatları (sənədləri) onlara təqdim etmək;

5.1.13. normativ hüquqi aktlarla müəyyən edilmiş hüquqlarının həyata keçirilməsi və vəzifələrinin icrası zamanı əldə etdiyi zəruri məlumatları (sənədləri) DAİS-ə daxil etmək;

5.1.14. DAİS-dən sərbəst və maneəsiz istifadənin, habelə onun dayanıqlı və fasiləsiz fəaliyyətinin təmin olunmasına nəzarət etmək;

5.1.15. DAİS-də dəyişikliklər edilməsi üçün operatora göstərişlər vermək və onların həyata keçirilməsinə nəzarət etmək;

5.1.16. DAİS-in formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi işlərinin layihələrə, texniki reqlamentlərə, beynəlxalq standartlara və normativ hüquqi aktlarla müəyyən edilmiş tələblərə uyğun formada aparılmasına nəzarət etmək;

5.1.17. normativ hüquqi aktlarla müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

5.2. DAİS-in fəaliyyətini təmin etmək üçün sahibin aşağıdakı hüquqları vardır:

5.2.1. DAİS-in formalaşdırılması, istifadəsi və inkişaf etdirilməsi ilə bağlı beynəlxalq təcrübəni və standartları öyrənmək, bu sahədə beynəlxalq təşkilatlarla, habelə Azərbaycan Respublikasının və xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək;

5.2.2. DAİS-dən istifadə və onun funksiyaları ilə bağlı maarifləndirmə və məlumatlandırma işləri aparmaq;

5.2.3. DAİS-in fəaliyyətinin təmin olunması ilə bağlı zəruri məlumatları (sənədləri) əldə etmək üçün aidiyyəti qurumlara sorğu vermək və həmin qurumlardan belə məlumatları (sənədləri) almaq;

5.2.4. normativ hüquqi aktlarla müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

### 6. Operatorun vəzifələri və hüquqları

6.1. Operatorun vəzifələri aşağıdakılardır:

6.1.1. DAİS-in informasiya təhlükəsizliyini DTX, XRİTDX və sahiblə, EHİS-in və "Hökumət buludu"nun informasiya təhlükəsizliyinə münasibətdə isə həmçinin Nazirliklə birlikdə təmin etmək;

6.1.2. DAİS-in informasiya təhlükəsizliyi məqsədilə mövcud və yarana biləcək təhlükələr və ya baş vermiş təhlükəsizlik insidentləri aşkar edildikdə, bu barədə məlumatları dərhal DTX-yə, XRİTDX-yə, EHİS-in və "Hökumət buludu"nun informasiya təhlükəsizliyinə münasibətdə isə həmçinin Nazirliyə təqdim etmək, habelə DTX, XRİTDX və Nazirlik tərəfindən bu barədə sorğular verildikdə həmin sorğuları dərhal, bu mümkün olmadıqda isə 24 saatdan gec olmayaraq cavablandırmaq;

6.1.3. DAİS-ə qarşı müdaxilə cəhdləri aşkar etdikdə, bu barədə məlumatları dərhal aidiyyəti hüquq mühafizə orqanına təqdim etmək;

6.1.4. DAİS-in, o cümlədən onun ehtiyat nüsxələrinin "Hökumət buludu"nda saxlanılmasının və aparılmasının təmin edilməsi üçün Nazirlik və sahiblə birlikdə tədbirlər görmək;

6.1.5. DAİS-in təhlükəsizliyi pozulduqda, fəaliyyətində nasazlıq yarandıqda, əsas avadanlıqlarında hər hansı qəza (xəta) baş verdiyi halda dərhal aidiyyəti dövlət orqanlarını və sahibi məlumatlandırmaq, nasazlığın və qəzanın (xətanın) qeydiyyatını aparmaq, dərhal aradan qaldırılması üçün sahibin verdiyi göstərişlərə uyğun təcili tədbirlər görmək, bu mümkün olmadıqda isə DAİS-in "Hökumət buludu"nun ehtiyat Data Mərkəzində fəaliyyətini davam etdirməsi üçün Nazirliklə birlikdə zəruri tədbirlər görmək;

6.1.6. DAİS-in fəaliyyətinin idarə olunması, təkmilləşdirilməsi və onun funksional imkanlarının artırılması istiqamətində sahiblə razılaşdırmaqla texniki tədbirlər görmək və bu barədə DAİS-in fəaliyyətində iştirak edən aidiyyəti dövlət qurumlarını məlumatlandırmaq;

6.1.7. DAİS-dən sərbəst və maneəsiz istifadəni, onun dayanıqlı və fasiləsiz fəaliyyətini təmin etmək məqsədilə DAİS-in proqram kompleksinə nəzarəti həyata keçirmək və mütəmadi texniki baxışı təşkil etmək;

6.1.8. normativ hüquqi aktlarla müəyyən edilmiş hüquqlarının həyata keçirilməsi və vəzifələrinin icrası zamanı əldə etdiyi zəruri məlumatları (sənədləri) DAİS-ə daxil etmək;

6.1.9. DAİS-i EHİS-ə inteqrasiya etmək, digər dövlət informasiya ehtiyatı və sistemi ilə məlumat mübadiləsini EHİS vasitəsilə həyata keçirmək;

6.1.10. DAİS-ə çıxışı olan, habelə onun aparılmasında iştirak edən əməkdaşlarını təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təmin etmək;

6.1.11. DAİS-in komponentlərinin və proqram təminatının təyinatı üzrə istismarını, texniki xidmətini, təmirini və yenilənməsini təmin etmək, təkmilləşdirilməsi üzrə profilaktik iş aparmaq;

6.1.12. Nazirliyin və sahibin bu Əsasnamə ilə və digər normativ hüquqi aktlarla müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq verdikləri təkliflər əsasında DAİS-də dəyişikliklər edilməsi üçün tədbirlər görmək;

6.1.13. sahibin göstərişi ilə normativ hüquqi aktlarda edilən dəyişikliklərə əsasən proqram təminatında uyğunlaşdırmalar aparılmasını, eləcə də yeni proqram modullarının yazılmasını və sınaqlar keçirilməsini təmin etmək;

6.1.14. DAİS-in formalaşdırılması, aparılması, inteqrasiyası və ya arxivləşdirilməsi ilə bağlı sənədləri və texniki məlumatları sahibə və Nazirliyə təqdim etmək;

6.1.15. DAİS-in formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi işlərini layihələrə, texniki reqlamentlərə, beynəlxalq standartlara və normativ hüquqi aktlarla müəyyən edilmiş tələblərə uyğun formada aparmaq;

6.1.16. aidiyyəti qurumların DAİS-in fəaliyyəti ilə bağlı sorğularını vaxtında və hərtərəfli cavablandırmaq, habelə qeyd edilən sorğular əsasında zəruri məlumatları (sənədləri) onlara təqdim etmək;

6.1.17. normativ hüquqi aktlarla müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

6.2. Operatorun aşağıdakı hüquqları vardır:

6.2.1. DAİS-in fəaliyyətinin təmin olunması ilə bağlı zəruri məlumatları (sənədləri) əldə etmək üçün aidiyyəti qurumlara sorğu vermək və həmin qurumlardan belə məlumatları (sənədləri) almaq;

6.2.2. DAİS-in təkmilləşdirilməsi istiqamətində rəy və təkliflər vermək;

6.2.3. DAİS ilə məlumat mübadiləsində iştirak edəcək digər informasiya ehtiyatları və sistemləri müəyyən edilmiş texniki və funksional tələblərə cavab vermədiyi hallarda onlarda zəruri dəyişikliklər edilməsi məqsədilə məsələ qaldırmaq;

6.2.4. DAİS-in parametrlərində sahiblə razılaşdırmaqla dəyişiklik etmək və bütün mümkün parametrlər üzrə hesabatlar əldə etmək;

6.2.5. DAİS-in təhlükəsiz və effektiv fəaliyyətinin pozulmasına səbəb olan əməllərə yol verildikdə, DAİS-ə giriş imkanını sahiblə razılaşdırmaqla ləğv etmək və ya məhdudlaşdırmaq;

6.2.6. normativ hüquqi aktlarla müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

### 7. İştirakçıların vəzifələri və hüquqları

7.1. İştirakçıların vəzifələri aşağıdakılardır:

7.1.1. DAİS-ə çıxışı olan, habelə onun aparılmasında iştirak edən əməkdaşlarını təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təmin etmək;

7.1.2. DAİS-ə daxil olmağa imkan verən elektron imza vasitələrinin konfidensiallığını (məxfiliyini) təmin etmək;

7.1.3. aktual, tam və etibarlı məlumatları (sənədləri) vaxtında və dolğun şəkildə DAİS-ə daxil etmək (ötürmək);

7.1.4. məlumatların mühafizəsini təmin edən avadanlıq və proqram vasitələrinə müdaxilə etməmək;

7.1.5. DAİS-dən, habelə DAİS-də olan məlumatlardan (sənədlərdən) yalnız xidməti məqsədlər üçün istifadə etmək;

7.1.6. DAİS-də saxlanılan məlumatlarda (sənədlərdə) aşkar edilmiş səhvlərin aradan qaldırılması məqsədilə dərhal sahibə və ya operatora məlumat vermək;

7.1.7. sahibin və operatorun DAİS-ə daxil etdiyi və iştirakçının bilavasitə fəaliyyəti ilə bağlı olan yeni məlumatları izləmək;

7.1.8. DAİS-in fəaliyyətinə zərər gətirəcək, habelə onun fəaliyyətinin ləngiməsinə və ya dayanmasına səbəb ola biləcək hərəkətlərə yol verməmək;

7.1.9. məlumat mübadiləsi zamanı aşkar olunmuş çatışmazlıqların və yaranan nasazlıqların aradan qaldırılması ilə bağlı tədbirlər görmək, bu barədə sahibə və Nazirliyə məlumat vermək;

7.1.10. öz təşəbbüsləri, habelə Nazirliyin və sahibin bu Əsasnamə ilə və digər normativ hüquqi aktlarla müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq verdikləri təkliflər əsasında sahibi və ya operatoru olduğu dövlət informasiya ehtiyatlarında və sistemlərində zəruri dəyişikliklər etmək.

7.2. İştirakçıların aşağıdakı hüquqları vardır:

7.2.1. DAİS-in fəaliyyəti ilə bağlı zəruri məlumatları (sənədləri) əldə etmək üçün sahibə və ya operatora sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

7.2.2. DAİS-in təkmilləşdirilməsi istiqamətində sahibə və ya operatora təkliflər vermək.

### 8. İstifadəçilərin hüquqları

8.1. İstifadəçilərin DAİS-dən istifadə ilə bağlı aşağıdakı hüquqları vardır:

8.1.1. DAİS-dəki açıq məlumatlarla tanış olmaq və onları əldə etmək;

8.1.2. qanunla müəyyən edilmiş hallar istisna olmaqla, özləri barəsində məlumatlarla tanış olmaq, onları əldə etmək və ya dəqiqləşdirilməsi üçün sahib və ya operatora müraciət etmək;

8.1.3. elektron kabinetləri üzərindən müraciətlərini göndərmək;

8.1.4. sahiblə, operatorla, iştirakçılarla və digər istifadəçilərlə qarşılıqlı əlaqəni və sənəd (məlumat) mübadiləsini elektron qaydada həyata keçirmək;

8.1.5. DAİS-in fəaliyyətinin təkmilləşdirilməsinə dair təkliflər vermək;

8.1.6. DAİS-dən istifadə ilə bağlı hüquqlarının pozulmasından inzibati qaydada və (və ya) məhkəməyə şikayət etmək;

8.1.7. normativ hüquqi aktlarla müəyyən edilmiş digər hüquqları həyata keçirmək.



# Cənubi Qafqazda davamlı sülh

## Azərbaycanın qətiyyəti ilə regionda təhlükəsizlik və iqtisadi inteqrasiya sahəsində mühüm irəliləyişlər əldə olunub

**Cənubi Qafqazda onilliklər boyu davam edən gərginlik və münaqişə dövrü artıq arxada qalıb. Region bu gün hərb və qarşıdurma ilə deyil, sülh, iqtisadi tərəqqi və yeni əməkdaşlıq imkanları ilə gündəmə gəlib. Bu müsbət dəyişikliklərin, yaranan yeni geopolitik reallığın və dayanıqlı təhlükəsizlik mühitinin memarı məhz Azərbaycandır. Bakının həyata keçirdiyi uzaqgörən diplomatiya və siyasi iradə sayəsində bölgədə yaradılan de-fakto sülh şəraiti artıq dönməz xarakter alıb.**

### Beynəlxalq dəstək

Avqustun 13-də Prezident İlham Əliyevin Almaniyanın ölkəmizə yeni təyin olunmuş səfiri Dirk Lölkeni qəbul edərkən regionda əldə olunan sülh prosesi ilə bağlı səsləndirdiyi fikirlər Cənubi Qafqazın yeni geopolitik mənzərəsini və rəsmi Bakının strateji xəttini aydın şəkildə nümayiş etdirir. Görüş zamanı dövlətimizin başçısı regionda sülh gündəliyinin Azərbaycan tərəfindən irəli sürüldüyünü bir daha vurğuladı. O, ölkəmizin sülh gündəliyinin irəliləməsi üçün səylərini davam etdirəcəyini və regionda sülhün artıq dönməz olduğunu bildirdi.

Cari ilin iyulunda Prezident İlham Əliyevin Almaniya Prezidenti Frank-Valter Ştaynmayer və Federal Kansler Fridrix Merts ilə keçirilən görüşlərində də Cənubi Qafqazda davamlı sülhün bərqərar olunması istiqamətində əldə edilmiş nailiyyətlər yüksək qiymətləndirilib. Dövlətimizin başçısı rəsmi Berlinin sülh prosesinə verdiyi töhfələri qeyd edərək bəyan edib ki, uzun illərdən sonra Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması və sülh sazişinin paraflanması faktiki olaraq 30 il davam edən münaqişəyə son qoydu: "Azərbaycan bu razılaşmadan dərhal sonra praktiki addımlara keçdi... ...Azərbaycan-Almaniya əlaqələri təkcə ikitərəfli münasibətlərə yox, bütövlükdə bölgəmizdə əməkdaşlığa, sülhə, əmin-amanlığa öz töhfəsini verəcəkdir".

Ötən ay Berlində imzalanan "Azərbaycan Respublikası ilə Almaniya Federativ Respublikası arasında İkitərəfli Tərəfdaşlığın Strateji Gündəliyi haqqında Birgə Bəyannamə" və Avropa İttifaqı ilə münasibətlərdəki müsbət dinamika da aydın göstərir ki, Azərbaycanın qətiyyəti ilə regionda formalaşmış sülh mühiti qlobal xarakter daşıyır.

Bu gerçəklikdir ki, bölgədə sülhün bərqərar olması "Şərq-Qərb" nəqliyyat dəhlizini daha təhlükəsiz və cəlbedici edir. Bu da Almaniya və digər Avropa şirkətlərinin regiona investisiya qoyması, ənənəvi və "yaşıl enerji", eləcə də təhsil sahəsində yeni layihələrin həyata keçirilməsi üçün geniş qapılar açır.

### Bəyanatlardan praktiki addımlara

Vətən müharibəsindən dərhal sonra Ermənistana təkmil sülh modeli təklif edən rəsmi Bakı ötən müddətdə sülh gündəliyini, sadəcə, diplomatik bəyanatlarla deyil, real addımlarla dəstəklədiyini sübut edib. 8 avqust Vaşinqton Zirvə Görüşünün və sülh sazişinin mətninin paraflanmasının ardından Bakı tərəfindən atılan praktiki addımlar bunun bariz nümunəsidir:

Ağ Evdə keçirilən Azərbaycan-Ermənistan Zirvə Görüşü ilə bölgədə de-fakto sülhün təməli qoyuldu. Vaşinqton Sammitinin birillik ildönümündə Prezident İlham Əliyev ABŞ liderinə ünvanladığı məktubunda zirvə görüşünün rolunu xüsusi qiymətləndirərək yazıb: "Bir il əvvəl Siz öz üzərinizə məsul tarixi missiyanı götürərək Cənubi Qafqazda dayanıqlı sülhün bərqərar edilməsi, Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması məsələsində dönüş nöqtəsi yaratdınız. Qətiyyətiniz və sarsılmaz iradəniz sayəsində Siz üç onillik ərzində davam edən münaqişənin tamamilə sona çatmasına, xalqlarımız üçün barışığın və qarşılıqlı tərəfdaşlıq dövrünün əsasını qoymağa nail oldunuz".

Vaşinqton razılaşmalarından keçən bir il ərzində regionda təhlükəsizlik və iqtisadi inteqrasiya sahəsində mühüm irəliləyişlər qeydə alınıb. Ən əsası sərhəd xəttində sülhə xələl gətirə biləcək heç bir ciddi hərbi insident baş verməyib.

Vaşinqtonda sülh sazişi mətninin paraflanmasından dərhal sonra Bakı regionda real, gözlə görünən humanitar və iqtisadi addımlar atmağa başlayıb. Azərbaycanın Ermənistana yanacaq ixrac etməyə başlaması bu ölkənin enerji təhlükəsizliyinə birbaşa kömək edir. Bakı öz ərazisindən Ermənistana yük daşınması üzərindəki bütün məhdudiyyətləri götürüb. Bununla da Rusiya və digər ölkələrdən gələn taxıl, gübrə və digər vacib mallar Azərbaycan vasitəsilə Ermənistana rahat şəkildə çatdırılır.

Bu günə qədər Rusiyadan Ermənistana Azərbaycan vasitəsilə 39 min tondan çox taxıl, təxminən 9 min tona yaxın gübrə, 1136 ton propan, 133 ton alüminium, 1114 ton kömür və 67 min tondan çox taxta daşınıb.

Eyni zamanda bu günə qədər Azərbaycandan Ermənistana təxminən 15 min ton dizel yanacağı və təxminən 5 min ton Aİ-92 və Aİ-95 benzini ixrac edilib. Bu addım illərdir təcriddə qalan Ermənistan üçün, sözün əsl mənasında, "nəfəslik" oldu.

Qazaxın 4 kəndinin qaytarılması ilə başlanan delimitasiya prosesi və kənar vasitəçilər olmadan təşkil edilən "Sülh Körpüsü" kimi vətəndaş cəmiyyəti dialoqları isə ikitərəfli formatın nə qədər effektiv işlədiyini göstərir. Bütün bunlar isə regionda artıq real sülh qaydalarının işlədiyinə nümunələrdir.

Göründüyü kimi, regionda 30 illik münaqişəyə son qoyaraq barış, təhlükəsizlik və iqtisadi tərəqqi üçün tarixi imkan yaradan Bakının prinsipial, ədalətli və sülhməramlı mövqeyi bölgəni müharibə ocağından regional inteqrasiya və əməkdaşlıq mərkəzinə çevirib.

Azərbaycan öz gücü və iradəsi ilə Cənubi Qafqaza de-fakto sülh gətirib, onu real praktiki addımlarla möhkəmləndirib.

***Yasəmən MUSAYEVA,*** 
***"Azərbaycan"***

# Azərbaycanla Çin arasında hüquqi əməkdaşlığın genişləndirilməsi nəzərdən keçirilib

**Avqustun 13-də baş prokuror Kamran Əliyev Çin Xalq Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri xanım Lu Meyi qəbul edib.**



Qonaqları səmimi salamlayan baş prokuror Azərbaycanla Çin arasında ənənəvi dostluq və tərəfdaşlıq əlaqələrinə, bütün sahələrdə işgüzar münasibətlərin mövcudluğuna toxunaraq, dövlətlərimizin hüquq-mühafizə orqanları arasında əməkdaşlığı haqqında danışıb.

Baş prokuror qeyd edib ki, Çin uzun illər ərzində müxtəlif beynəlxalq platformalarda Azərbaycanın haqlı mövqeyini və siyasi təşəbbüslərini dəstəkləyib, dövlət başçılarının siyasi iradəsi və mütəmadi təmasları nəticəsində Azərbaycan-Çin münasibətləri son illərdə dinamik inkişaf edərək hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib.

Xüsusi vurğulandı ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2025-ci ildə Çinə iki səfəri və həmin ilin aprelində Çin Xalq Respublikasının Sədri cənab Si Cinpinlə "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat"ın imzalanması bunun mühüm göstəricilərindəndir.

Dövlətlərarası münasibətlərin yüksək səviyyəsi Azərbaycan və Çin prokurorluq orqanları arasında əlaqələrin inkişafına da müsbət təsir göstərərək qarşılıqlı maraq doğuran məsələlər üzrə əməkdaşlığın və təcrübə mübadiləsinin genişlənməsinə əlverişli zəmin yaradıb.

Görüş zamanı həmçinin cari ilin aprel ayında Şanxay şəhərində Çin Xalq Respublikasının Ali Xalq Prokurorluğunun baş prokuroru Yinq Yonqla baş tutmuş görüşün qurumlararası münasibətlərə xüsusi töhfə verdiyi də qeyd olunub.

Daha sonra cinayətkarlığın müxtəlif formalarına qarşı mübarizə, praktiki əməkdaşlıq məsələləri, həmçinin hüquqi və institusional əməkdaşlığın genişləndirilməsi perspektivləri ətrafında fikir mübadiləsi aparılaraq razılıq əldə olunub.

Səmimi qəbula görə təşəkkürünü bildirən səfir Lu Mey ikitərəfli münasibətlərə toxunaraq Çin Xalq Respublikaının Azərbaycanla əlaqələrə böyük önəm verdiyini və iki ölkə arasında münasibətlərin yüksək səviyyədə və müvəffəqiyyətlə inkişaf etdiyini vurğulayıb.

***"Azərbaycan"***

# Azərbaycan və Ermənistan elektrik enerjisinin ixracı və idxalı sahəsində də əməkdaşlıq edə bilər

**Cənubi Qafqaz tarixinin ən mühüm mərhələlərindən birini yaşayır. Onilliklər ərzində davam edən Azərbaycan-Ermənistan münaqişəsinin hərbi mərhələsinin sona çatmasından sonra region qarşısında davamlı sülhün, dövlətlərarası münasibətlərin və qarşılıqlı iqtisadi əməkdaşlığın formalaşdırılması məsələsi dayanıb. Bu prosesin mühüm xüsusiyyəti ondan ibarətdir ki, siyasi müstəvidə əldə edilən razılaşmalar artıq tədricən iqtisadi və nəqliyyat reallıqlarına çevrilir.**

2020-ci ilin payızında İkinci Qarabağ müharibəsi Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistanın Baş naziri arasında üçtərəfli Bəyanatın imzalanması ilə başa çatdı. Avqustun 11-də Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Azərbaycan Televiziyasına müsahibə verən dövlətimizin başçısı İlham Əliyevin vurğuladığı kimi, əslində, bu, Ermənistan üçün kapitulyasiya aktı idi, çünki Ermənistan təslim oldu. Lakin rəsmi İrəvan üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmədi. Prezident İlham Əliyev İkinci Qarabağ müharibəsindən keçən 5 il ərzində Zəngəzur dəhlizinin açılması ilə bağlı heç bir praktiki addım atılmadığını, Ermənistanın bunu hər cür uzatmağa çalışdığını xarırladıb.

İki dövlət arasında sülhə doğru uğurlu addımların atılmasında 2025-ci il avqustun 8-də Vaşinqtonda Azərbaycan Prezidenti İlham Əliyev, ABŞ Prezidenti Donald Tramp və Ermənistanın Baş naziri Nikol Paşinyanın iştirakı ilə keçirilmiş görüş xüsusi əhəmiyyət daşıyıb. Görüşün nəticəsi olaraq, Azərbaycan və Ermənistan arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsinə dair sazişin razılaşdırılmış mətni iki ölkənin xarici işlər nazirləri tərəfindən paraflanıb, Azərbaycan və Ermənistan rəhbərlərinin Birgə Bəyannaməsi imzalanıb.

Bu gün qarşıda duran əsas məsələ əldə edilmiş razılaşmaların hüquqi və siyasi müstəvidə tam rəsmiləşdirilməsi, onların icrasının təmin olunması və iki ölkə arasında münasibətlərin dayanıqlı hüquqi əsaslar üzərində qurulmasıdır. Ölkəmizin sülh gündəliyində irəli sürdüyü əsas prinsiplər əvvəldən aydın və ardıcıl olub. Rəsmi Bakı ilk növbədə iki dövlətin bir-birinin suverenliyinə, ərazi bütövlüyünə və beynəlxalq səviyyədə tanınmış sərhədlərinə hörmət etməsini tələb edir.

Paraflanmış Sazişdə də tərəflərin bir-birinin suverenliyini, ərazi bütövlüyünü, beynəlxalq sərhədlərinin toxunulmazlığını və siyasi müstəqilliyini tanıması və hörmət etməsi təsbit olunub. Sənəddə tərəflərin bir-birinə qarşı ərazi iddialarının olmadığı və gələcəkdə də belə iddialar irəli sürməyəcəyi əksini tapıb.

Azərbaycan Ermənistanla sülh müqaviləsinin bağlanmasına yalnız bu günün reallığından yanaşmır. Rəsmi Bakı hesab edir ki, iki dövlət arasında imzalanacaq sülh sənədi gələcəkdə də hər hansı siyasi qüvvənin ərazi iddialarını yenidən gündəmə gətirməsinə hüquqi əsas verməməlidir. Bu mənada Ermənistanın konstitusiyasında Azərbaycana qarşı ərazi iddiaları ilə bağlı müddəanın qalması Azərbaycan tərəfindən prinsipial məsələ kimi qiymətləndirilir. Dövlətimizin başçısı İlham Əliyev dəfələrlə bəyan edib ki, Ermənistan konstitusiyasındakı bu məsələ həll edilmədən sülh sazişi imzalanmayacaq.

Ermənistan rəhbərliyinin özünün də yeni konstitusiya məsələsini gündəmə gətirməsi bu baxımdan diqqətəlayiqdir. Nikol Paşinyan yeni konstitusiyanın qəbul edilməsi ilə bağlı referendum keçirilməsi niyyətini açıqlayıb.

Bir vaxtlar münaqişə və qarşıdurma ocağına çevrilmiş Cənubi Qafqaz regionunda indi nəqliyyat, enerji, logistika və ticarət layihələrinin kəsişdiyi məkana çevrilir. Azərbaycan öz coğrafi mövqeyindən istifadə etməklə "Şərq-Qərb" və "Şimal-Cənub" marşrutlarını birləşdirən əsas platformalardan birinə çevrilir. Ermənistan isə uzun müddət davam edən regional təcriddən çıxmaq və yeni nəqliyyat-iqtisadi əlaqələr qurmaq kimi şans qazanıb.

Azərbaycanın Ermənistana ixracının 2026-cı ilin ilk yarısında əhəmiyyətli şəkildə artması iqtisadi əlaqələrin genişləndiyini göstərib. İyulun 13-də Şuşada "Sülhün təşviqində medianın missiyası: Həqiqətin bərpası və etimadın yenidən qurulması" mövzusunda IV Şuşa Qlobal Media Forumunun açılış mərasimində Prezident İlham Əliyev vurğulayıb ki, Azərbaycan birtərəfli olaraq Ermənistana bütün tranzit məhdudiyyətlərini aradan qaldırdı və hazırda biz bunu etməklə 40 min tondan artıq müxtəlif yüklər Rusiya, Qazaxıstan və digər yerlərdən Ermənistana daşındı: "Bundan əlavə, Azərbaycan özü Ermənistana neft məhsullarını təchiz etməyə başlayıb və bildiyimə görə, artıq 10 min tondan çoxdur. Bu, xüsusən də indi - bir çox ölkələrin yanacağa çıxışdan əziyyət çəkdiyi dövrdə baş verir və Ermənistan Azərbaycanı etibarlı mənbə kimi görür. Əgər belə olmasaydı, ola bilsin, bu gün onlar bütün dünyada benzin və dizel yanacağı axtarmalı olacaqdılar".

Bu günlərdə Ermənistanın Baş naziri Nikol Paşinyan brifinq zamanı bəyan edib ki, Ermənistan və Azərbaycan elektrik enerjisinin ixracı və idxalı üzrə də əməkdaşlıq edə bilər. Nikol Paşinyan azərbaycanlı mütəxəssislərin 2025-ci ilin sentyabrında və 2026-cı ilin yanvarında Ermənistana səfər etdiklərini bildirib. O, səfərlər zamanı elektrikötürücü xətlər, dəmir yolları, boru kəmərləri və sairə ilə bağlı müzakirələrin aparıldığını deyib: "Biz daha əvvəl də demişdik ki, elektrikötürücü xətlər, boru kəmərləri, kabellər, dəmir yolları üzərində işləyirik və bu məsələlər üzrə ikitərəfli iş aparılır". Nikol Paşinyan yaxın vaxtlarda Ermənistandan Azərbaycana ixrac tədarüklərinin həyata keçiriləcəyini də açıqlayıb.

Sülh prosesinin ən mühüm istiqamətlərindən biri regional kommunikasiyaların bərpasıdır. Zəngəzur istiqamətində kommunikasiyaların açılması yalnız Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında əlaqənin yaradılması məsələsi deyil, bu layihə daha geniş mənada Cənubi Qafqazın nəqliyyat xəritəsinin dəyişməsi deməkdir. Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Azərbaycan Televiziyasına müsahibəsində dövlətimizin başçısı qeyd edib ki, Zəngəzur dəhlizinin yaradılması bildiyiniz kimi, bizim təşəbbüsümüz olub: "Azərbaycanın əsas hissəsini onun ayrılmaz hissəsi olan Naxçıvanla birləşdirmək bizim çoxdankı arzumuz olub. Biz bu hədəfə doğru inamla və çox böyük məharətlə addımlayırdıq, yaxınlaşırdıq və artıq yaxınlaşmışıq".

Bu gün artıq Azərbaycanın Ermənistana enerji məhsulları ixrac etməsi, Azərbaycan ərazisindən Ermənistana tranzit yüklərin daşınması, ticarət əlaqələrinin formalaşması, enerji-nəqliyyat layihələrinin müzakirəsi göstərir ki, sülhə aparan yol yaxındır və artıq öz faydalarını verir. Qarşıda duran əsas vəzifə isə bu prosesin inkişafını və davamlılığını təmin etməkdir.

***Zöhrə FƏRƏCOVA,*** 
***"Azərbaycan"***

# Xankəndinin Böyük qayıdış səhifəsi

**"Əziz həmvətənlər, bu meydanda bu gün durmaq böyük xoşbəxtlikdir, böyük fərəhdir, qürur mənbəyidir. Mən qürur hissi ilə Azərbaycan bayrağını bu gün qaldırmışam və doğma xalqıma bir daha demək istəyirəm ki, biz bu Qələbəyə layiqik. Azərbaycan xalqı bu Qələbəni öz qanı, canı bahasına əldə etmişdir. Bu gün burada qaldırdığım bayraq burada əbədi dalğalanacaq və biz burada əbədi yaşayacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"**





Prezident İlham Əliyevin Xankəndi şəhərində Dövlət bayrağını qaldırdıqdan sonra çıxış edib səsləndirdiyi bu fikirlər tam olaraq gerçəkliyə çevrilib. Qarabağlılar artıq öz doğma dədə-baba torpaqlarına əbədi qayıdır, orada həyatlarını yenidən qururlar. Bu isə həyata keçirilən davamlı, ardıcıl dövlət siyasətinin nəticəsidir.

44 günlük Vətən müharibəsindəki qələbə başa çatdıqdan sonra qarşıda duran əsas vəzifə bu ərazilərdə sürətli quruculuq işləri aparmaq və Böyük qayıdışı təmin etmək idi. Dövlət başçısının tapşırığı məhz bu istiqamətdə olmuşdu. İşğaldan azad olunmuş ərazilərə səfər edən Prezident İlham Əliyev ilk növbədə böyük quruculuq işlərinin təməlini atdı. Qısa zamanda keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışı qarşıya prioritet vəzifə kimi qoyuldu. Görülən sürətli bərpa və yenidənqurma işləri nəticəsində çox keçmədən 2022-ci ilin yayında Zəngilan ilk sakinlərini qarşıladı. Bununla da Böyük Qayıdışa dair I Dövlət Proqramının, demək olar ki, ilkin nəticələri göz önünə çıxdı. İlk sakinlərin Ağalıya qədəm qoymasından sonra isə köç prosesi davamlı xarakter aldı. Neçə-neçə yaşayış məntəqələrinə köç karvanları yola salındı. Onun nəticəsidir ki, bu gün Qarabağ və Şərqi Zəngəzurda 90 mindən çox insan yaşayır, işləyir və təhsil alır. Otuzillik həsrətdən sonra bu gün hər bir azərbaycanlı bu torpaqları özünə doğma ev, ocaq hesab edir.

2023-cü ildə keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində Azərbaycanın ərazi bütövlüyü və dövlət suverenliyi tam bərpa olundu. Xankəndidə Dövlət bayrağının ucaldılması isə bu tarixi Zəfərin ən parlaq zirvəsinə yüksəldi. Beləliklə, yeni ünvanlara qayıdış başladı. Bərpa işləri yekunlaşdıqdan sonra bu il xankəndililərə də xoş xəbər verildi. Yeni ilin ilk ayında 162 nəfərdən ibarət 36 ailə Xankəndiyə qədəmlərini qoydular. Bu baxımdan, bu ilin həm də xankəndililərin ili olduğunu desək yanılmarıq.

Avqustun 14-də də Xankəndi şəhərinə növbəti köç karvanı yola salınıb. Bu mərhələdə Xankəndiyə 22 ailə - 102 nəfər köçürülüb. Köç edən ailələr respublikanın müxtəlif ərazilərində, əsasən yataqxana, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış sakinlərdən ibarətdir. Doğma yurda qayıdan sakinlər göstərilən dövlət qayğısına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya, həmçinin Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərə minnətdarlıqlarını ifadə edib, Vətən uğrunda canlarından keçən şəhidlərə rəhmət diləyiblər.

Beş il ərzində Qarabağ və Şərqi Zəngəzurda vüsət almış geniş quruculuq işləri nəticəsində Böyük qayıdış prosesinin birinci mərhələsi bu il uğurla tamamlanacaq. Növbəti ildən isə ikinci mərhələyə start verilir. Prezident İlham Əliyevin "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair II Dövlət Proqramı"nın hazırlanması haqqında sərəncamına əsasən, artıq ikinci proqram da hazırlanır. 2027-2030-cu illəri əhatə edəcək proqram Böyük qayıdışın davamlılığını təmin etməklə yanaşı, işğaldan azad edilmiş ərazilərin sosial-iqtisadi inkişafını sürətləndirəcək, müasir infrastrukturun formalaşdırılmasına və əhalinin doğma yurdlarına təhlükəsiz, rahat şəkildə qayıdışına xidmət edəcək.

İşğaldan azad edilmiş ərazilərdə yaşayış üçün zəruri şəraitin yaradılması və sosial xidmətlərin əlçatanlığının artırılması əvvəlki proqramdakı kimi, yenə də əsas istiqamətlərdən biri olacaq. Sənəddə yeni yaşayış məntəqələrinin salınması ilə yanaşı, mövcud şəhər və kəndlərin müasir standartlara uyğun inkişaf etdirilməsi nəzərdə tutulur. Bu proses ərazilərin iqtisadi potensialının reallaşdırılmasına, yeni iş imkanlarının yaradılmasına və yerli məşğulluğun artırılmasına da töhfə verəcək. Beləliklə, Böyük qayıdış proqramının icrası yalnız insanların doğma torpaqlarına qayıtmasını deyil, həmin ərazilərdə uzunmüddətli və dayanıqlı həyatın qurulmasını təmin edən genişmiqyaslı proses kimi davam edəcək.

***Əsmər QARDAŞXANOVA,*** 
***"Azərbaycan"***

RƏSMİ DÖVLƏT QƏZETİ AZƏRBAYCAN





# Bölgədə söz sahibi olan qüdrətli ordu

## Ali Baş Komandanın rəhbərliyi ilə sürətlə modernləşən və daha da güclənən Silahlı Qüvvələrimiz regionda sülhün, təhlükəsizliyin və sabitliyin əsas təminatçısıdır

**Azərbaycanın müdafiə strategiyasında Silahlı Qüvvələrin davamlı şəkildə modernləşdirilməsi, suverenliyin, ərazi bütövlüyünün və dövlət sərhədlərinin etibarlı şəkildə qorunması mühüm yer tutur. İllər boyu həyata keçirilən sistemli və uzaqgörən ordu quruculuğu siyasəti ölkəmizin hərbi imkanlarını və müdafiə potensialını əhəmiyyətli dərəcədə yüksəldib.**

Müdafiə sahəsinə ayrılan vəsaitlərin mütəmadi olaraq artırılması, hərbi sənaye kompleksinin inkişaf etdirilməsi, ən müasir texnika, silah və sursatların arsenala daxil edilməsi Silahlı Qüvvələrin texniki imkanlarını köklü şəkildə genişləndirib. O cümlədən müasir idarəetmə və müşahidə sistemlərinin tətbiqi, peşəkar hərbi kadrların hazırlanması, hərbi hissələrin infrastrukturlarının yenilənməsi və hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması Azərbaycanın müdafiə sistemini yeni pilləyə yüksəldib.

Məhz bu dövlət siyasətinin məntiqi nəticəsi kimi Azərbaycan Ordusu 2020-ci ilin 44 günlük Vətən müharibəsində tarixi Zəfər qazanaraq öz döyüş qabiliyyətini və peşəkarlığını bütün dünyaya nümayiş etdirdi. Bununla belə, ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpasından sonra da hərbi islahatlar, ordu quruculuğu prosesi daha intensiv xarakter aldı və keyfiyyətcə yeni mərhələyə qədəm qoydu. Döyüş təcrübəsi nəzərə alınaraq çevik idarəetməyə, yüksək fiziki və taktiki hazırlığa malik yeni operativ hərbi birliklərin, xüsusilə komando qüvvələrinin formalaşdırılması ordumuzun gözlənilməz şəraitlərdə və mürəkkəb tapşırıqlarda reaksiya vermə imkanlarını maksimum dərəcədə gücləndirdi.

Azərbaycanın vahid milli təhlükəsizlik sistemində Naxçıvan Muxtar Respublikasının müdafiəsi xüsusi və strateji önəm daşıyır. Naxçıvanın spesifik geostrateji mövqeyi, birbaşa quru bağlantısının olmaması və regional mühitdə mövcud olan hərbi-siyasi reallıqlar muxtar respublikanın təhlükəsizliyinə hər zaman xüsusi və həssas yanaşmanı zəruri edib. Çünki Naxçıvanın müdafiə qabiliyyətinin yüksək səviyyədə saxlanılması yalnız bu regionun daxili sabitliyi üçün deyil, bütövlükdə Azərbaycan dövlətinin təhlükəsizlik arxitekturası üçün həyati əhəmiyyət kəsb edir.

Bu səbəbdən bölgənin coğrafi və strateji xüsusiyyəti nəzərə alınaraq Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə Naxçıvanda Əlahiddə Ümumqoşun Ordunun yaradılması ölkəmizin hərb tarixində önəmli addım kimi dəyərləndirilir. Əlahiddə Ordu Azərbaycan Silahlı Qüvvələrinin mühüm tərkib hissəsi kimi fəaliyyət göstərir. Bu xüsusi hərbi strukturun təsisi muxtar respublikanın müdafiəsinin daha çevik, sistemli, müstəqil və operativ şəkildə təşkil edilməsinə şərait yaradır. Hərbi bölmələrin vahid komandanlıq altında cəmləşməsi, müdafiə tədbirlərinin koordinasiyasının dəqiqləşdirilməsi və şəxsi heyətin mütəmadi təlimlərə cəlb olunması Naxçıvanın müdafiə gücünü dayanıqlı müstəviyə çıxarıb. Əsas məqsəd ehtimal olunan hər hansı təhdid və ya təxribatın qarşısını dərhal, vaxtında və adekvat şəkildə almağa qadir olan çevik müdafiə mexanizmi formalaşdırmaqdan ibarətdir.

Naxçıvanın özünəməxsus dağlıq relyefi, mürəkkəb sərhəd zolaqları və xüsusi iqlim şəraitləri hərbi hazırlığın xüsusi taktiki tələblər üzrə aparılmasını zərurət halına gətirir. Dağ-meşə və relyef şəraitində döyüş aparmaq bacarıqları hərbi qulluqçulardan yüksək dözümlülük, çevik düşüncə və peşəkar bacarıqlar tələb edir. Bu baxımdan, son dövrlərdə Azərbaycan Ordusunun modernləşdirilməsi strategiyasına uyğun olaraq Naxçıvanda da əməliyyat (komando) birliklərinin yaradılması müdafiə sisteminin müasir standartlara tam uyğunlaşdırılmasının parlaq göstəricisidir. Xüsusi hazırlıq proqramları keçən komando qüvvələri mürəkkəb relyefdə, gecə və gündüz şəraitində müxtəlif xüsusi tapşırıqları icra etmək üçün təlimatlandırılır ki, bu da regiondakı hərbi qüvvələrin çevikliyini dəfələrlə artırır.

Muxtar respublikada hərbi infrastrukturun gücləndirilməsi istiqamətində növbəti tarixi addım avqustun 11-də atılıb. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Naxçıvan Muxtar Respublikasına səfərləri çərçivəsində Əlahiddə Ümumqoşun Orduda yeni təşkil edilmiş əməliyyat (komando) hərbi hissələrinə Döyüş bayraqlarının verilməsi mərasimində iştirak ediblər. Təqdim olunan Döyüş bayraqları hərbi hissələrin döyüş şərəfini, rəşadətini və dövlətə sədaqətini rəmziləşdirməklə yanaşı, muxtar respublikanın müdafiə potensialının yüksək səviyyəyə çatdırıldığını da nümayiş etdirir.

Dövlətimizin başçısı səfər zamanı Azərbaycan Televiziyasına verdiyi müsahibəsində Naxçıvanın təhlükəsizlik məsələlərinin mahiyyətini, ordu quruculuğunda əldə olunmuş uğurları və Silahlı Qüvvələrimizin regional nüfuzunu diqqətə çatdıraraq deyib: "Bu illər ərzində, əlbəttə ki, ilk növbədə Naxçıvanın müdafiə potensialının gücləndirilməsi məsələsi prioritet məsələlər sırasında idi. Bu istiqamətdə də böyük işlər görüldü və bu gün bayrağın təqdimetmə mərasimində bir daha Naxçıvanın hərbi gücü özünü göstərdi, həm texnika ilə təchizat, - özü də ən müasir texnika ilə, - həm də yeni komando qüvvələrinin yaradılması. Bu da Azərbaycan Silahlı Qüvvələrində son vaxtlar müşahidə olunan mənzərədir".

Prezident İlham Əliyev müsahibəsinin davamında muxtar respublikanın özünəməxsus coğrafi şəraitinə diqqət çəkərək, burada xüsusi hərbi strukturun formalaşdırılmasının və təhlükəsizlik önləmlərinin artırılmasının strateji zərurətdən doğduğunu vurğulayıb: "Bildiyiniz kimi, Naxçıvanda mənim sərəncamımla Əlahiddə Ordu yaradılmışdır. Bu ordu, təbii ki, Azərbaycan Silahlı Qüvvələrinin ayrılmaz tərkib hissəsidir. Ancaq Naxçıvanın spesifikası, coğrafiyası, Azərbaycanla, Azərbaycanın əsas hissəsi ilə coğrafi bağlantısının olmaması, əlbəttə ki, bu diyarın - muxtar respublikanın təhlükəsizliyinə daha böyük diqqət göstərməyimizə gətirib çıxardı və bu, daim belədir. Ona görə bu, birinci şərtdir. Bu gün qeyd etdiyim kimi, Azərbaycan Silahlı Qüvvələri bölgədə söz sahibidir. O cümlədən Naxçıvanda hərbi potensial gündən-günə gücləndirilir və gücləndiriləcək".

Azərbaycan Prezidentinin bu fikirləri Naxçıvanın müdafiə qabiliyyətinin möhkəmləndirilməsi prosesinin davamlı və strategiyaya söykənən bir dövlət siyasəti olduğunu göstərir. Muxtar respublikada yerləşən hərbi hissələrin müasir müşahidə, rabitə, zərbə sistemləri və texniki vasitələrlə təmin edilməsi fəaliyyətin tam dəqiqliklə idarə olunmasına imkan verir. Müasir hərbi texnologiyalarla peşəkar kadr hazırlığının sintezi Əlahiddə Ordunun döyüş qabiliyyətini yüksəldir.

Naxçıvanın təhlükəsizlik sisteminin formalaşmasında Azərbaycan-Türkiyə hərbi əməkdaşlığının da özünəməxsus yeri var. İki qardaş ölkə arasında hərbi sahədə mövcud olan strateji müttəfiqlik münasibətləri, birgə keçirilən taktiki təlimlər, hərbi təcrübə və kadr mübadiləsi Azərbaycan Ordusunun, o cümlədən Əlahiddə Ordunun peşəkar imkanlarının inkişafına mühüm töhfə verir. Naxçıvanın Türkiyə ilə birbaşa sərhədə malik olması bu hərbi əməkdaşlığın regional təhlükəsizlik baxımından əhəmiyyətini daha da artırır.

Təhlükəsizliyin etibarlı təminatı həm də regionun ümumi sosial, iqtisadi və mədəni tərəqqisinin əsas zəmanətidir. Sabitlik və təhlükəsizlik olmayan mühitdə uzunmüddətli iqtisadi layihələrin, infrastruktur proqramlarının həyata keçirilməsi və investisiya axınının təmin edilməsi qeyri-mümkündür. Bu baxımdan, Naxçıvanda müdafiə imkanlarının gücləndirilməsi muxtar respublikanın iqtisadi potensialının reallaşmasına, turizmin, sənayenin inkişafına və əhalinin dinc, təhlükəsiz şəraitdə rifah içində yaşamasına birbaşa xidmət edir.

Göründüyü kimi, müdafiə sahəsində həyata keçirilən tədbirlər kompleks xarakter daşıyır. Yüksək hazırlıqlı şəxsi heyət, modern texniki təchizat, yeni yaradılmış komando birlikləri və effektiv idarəetmə mexanizmləri Naxçıvanın müdafiəsini keçilməz qalaya çevirir. Dövlətimizin başçısının da ifadə etdiyi kimi, Azərbaycan Silahlı Qüvvələrinin bölgədə söz sahibi olması yalnız hərbi gücün deyil, həm də dövlətin ardıcıl siyasətinin və milli maraqları qorumaq iradəsinin göstəricisidir. Naxçıvanda hərbi potensialın davamlı olaraq artırılması ölkəmizin ümumi müdafiə sistemini daha da gücləndirir, regionda sülhün, sabitliyin etibarlı zəmanəti kimi çıxış edir.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# Yeni inkişaf erası və strateji hədəflər

## Tarixi varislik və yeni geopolitik reallıqlar fonunda Naxçıvan

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Naxçıvan Muxtar Respublikasına həyata keçirdikləri növbəti tarixi səfər ölkəmizin sosial-iqtisadi, hərbi və nəqliyyat-logistika strategiyasında keyfiyyətcə yeni bir mərhələnin başladığını nümayiş etdirdi. Naxçıvan torpağı təkcə Azərbaycanın qədim mədəniyyət ocağı deyil, həm də dövlətçilik tariximizin ən çətin sınaq illərində strateji qala rolunu oynamış müqəddəs diyardır.**

Ulu Öndər Heydər Əliyevin böyük uzaqgörənliklə əsasını qoyduğu "Güclü Naxçıvan - Güclü Azərbaycan" konsepsiyası bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə tamamilə yeni məzmunda, müasir dövrün tələblərinə uyğun olaraq reallaşdırılır.



Cənubi Qafqazda formalaşan yeni geostrateji mənzərə fonunda Naxçıvanın rolu misilsiz dərəcədə artıb. Uzun illər blokada şəraitində yaşamasına baxmayaraq, muxtar respublika öz daxili potensialını saxlamış və bu gün regional iqtisadi-logistik mərkəzə çevrilmək üçün tarixi imkan əldə etmişdir. Dövlət başçısının bu səfəri çərçivəsində təməli qoyulan layihələr, verilən tapşırıqlar və imzalanan qərarlar təsdiqləyir ki, Naxçıvanın inkişafı artıq təkcə regional deyil, qlobal nəqliyyat və enerji dəhlizlərinin mühüm halqası kimi planlaşdırılır.

### İdarəetmə islahatları və strateji şəhərsalma

Naxçıvanda son dövrlərdə həyata keçirilən struktur və idarəetmə islahatları dövlət idarəçiliyinin çevikliyini, şəffaflığını və səmərəliliyini təmin etməyə yönəlib. Konstitusiya dəyişiklikləri və mərkəzi haki-miyyətin muxtar respublikadakı idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi Naxçıvanın vahid ölkə iqtisadiyyatına tam inteqrasiyasını sürətləndirib. Bu çərçivədə qəbul edilən qərarlar regional idarəetmədə mərkəzləşdirilmiş nəzarəti və operativliyi təmin edərək bürokratik maneələri aradan qaldırmışdır.

Səfər çərçivəsində təqdim olunan "Naxçıvan şəhərinin 2044-cü ilədək inkişafına dair Baş Plan"ı bu inteqrasiyanın və uzunmüddətli baxışın parlaq təcəssümüdür. Baş plan çərçivəsində şəhərin ekoloji təmizliyi, rahat və əlverişli yaşam mühitinin yaradılması, müasir urbanizasiya standartlarının tətbiqi və sosial mənzil tikintisi ön plana çəkilir. Naxçıvan şəhərində təməli qoyulan 518 mənzildən ibarət Sosial Evlər Kompleksi əhalinin, xüsusən gənc ailələrin və sosial həssas qrupların mənzil şəraitinin yaxşılaşdırılmasına xidmət edir. Şəhərin turizm infrastrukturunun inkişafı məqsədilə "Naxçıvan" Mehmanxana Kompleksinin təməlinin qoyulması da regionun işgüzar və turizm cəlbediciliyini yüksəldəcəkdir.

Mədəni-tarixi irsin bərpası istiqamətində Şərq memarlığının incisi sayılan Möminə xatun türbəsində aparılan bərpa işləri göstərir ki, müasir inkişaf milli-mənəvi dəyərlərin qorunması ilə paralel şəkildə həyata keçirilir. Tarixi abidələrin bərpası Naxçıvanın həm də böyük mədəniyyət və turizm mərkəzi kimi beynəlxalq aləmdə tanıdılmasına töhfə verir.

### İqtisadi diversifikasiya və "yaşıl enerji" qovşağına çevrilmə

Prezident İlham Əliyevin müəyyən etdiyi strateji xəttə uyğun olaraq, Naxçıvan təkcə özünü enerji ilə təmin edən region deyil, həm də xarici bazarlara "yaşıl enerji" ixrac edən mərkəzə çevrilir. "Şəms 1" və "Qərbi Üfüq" Günəş-Elektrik stansiyalarının təməlinin qoyulması muxtar respublikanın bərpaolunan enerji potensialını keyfiyyətcə yeni səviyyəyə qaldırır. Ümumi gücü 50 meqavat olan bu stansiyalar regionun "yaşıl enerji" payını artırmaqla yanaşı, Türkiyə və Avropa istiqamətində elektrik enerjisi ixracına möhkəm zəmin yaradır.

Eyni zamanda 310 hektar ərazini əhatə edən Naxçıvan Sənaye Parkının təməlinin qoyulması yerli istehsalın təşviqi, daxili bazarın zənginləşdirilməsi və yüzlərlə yeni iş yerinin yaradılması deməkdir. Sənaye parkı kiçik və orta sahibkarlığın inkişafı üçün əlverişli ekosistem yaradaraq regiona yerli və xarici investisiyaların cəlb edilməsini sürətləndirəcəkdir. Sosial idarəetmə və xidmət sahəsində də mühüm addımlar atılır. Yeni Sosial DOST Mərkəzinin fəaliyyətə başlaması əhaliyə göstərilən məşğulluq, sosial müdafiə və təminat xidmətlərinin operativliyini, şəffaflığını və vətəndaş məmnunluğunu maksimum səviyyəyə çatdırır.

### Strateji logistika və Zəngəzur dəhlizinin həlledici halqası

Naxçıvanın gələcək inkişaf modelində nəqliyyat və logistika sektoru xüsusi yer tutur. Dövlət başçısının səfər zamanı dəmir yolu infrastrukturu və müasir nəqliyyat vasitələri ilə tanış olması bu sahəyə verilən strateji diqqətin təzahürüdür. Naxçıvan dəmir yolu şəbəkəsinin müasir beynəlxalq standartlar səviyyəsində yenidən qurulması Zəngəzur dəhlizinin (TRIPP) tam gücü ilə işə düşməsinə hazırlıq məqsədi daşıyır.

Zəngəzur dəhlizi yalnız Naxçıvanı Azərbaycanın əsas ərazisi ilə vasitəsiz bağlamaqla qalmayacaq, həm də Türkiyə ilə birbaşa quru və dəmir yolu əlaqəsini təmin edəcəkdir. Bu marşrut "Şərq-Qərb" və "Şimal-Cənub" beynəlxalq nəqliyyat koridorlarının ən mühüm qovşağına çevrilərək Azərbaycanın qlobal logistika xəritəsindəki mövqeyini möhkəmləndirəcək. Daxili nəqliyyat infrastrukturunun yenilənməsi çərçivəsində Naxçıvan şəhərinə gətirilən müasir elektrik mühərrikli avtobuslar isə ekoloji təmizlik və şəhəriçi nəqliyyatın modernləşdirilməsi baxımından müstəsna əhəmiyyətə malikdir.

### Milli təhlükəsizlik və hərbi qüdrətin möhkəmləndirilməsi

Naxçıvanın geostrategiyasında onun müdafiə qabiliyyəti hər zaman birinci dərəcəli əhəmiyyət kəsb edib. Ermənistanla həmsərhəd olan və strateji yüksəkliklərdə yerləşən muxtar respublikada hərbi potensialın gücləndirilməsi dövlət siyasətinin ən vacib prioritetlərindən biridir.

Prezident, Ali Baş Komandan İlham Əliyevin Əlahiddə Ümumqoşun Ordunun yeni yaradılan komando hərbi hissələrinə döyüş bayraqlarını təqdim etməsi ölkəmizin hərbi qüdrətinin növbəti nümayişidir. Ali Baş Komandanın mesajı aydındır: Azərbaycanın hər bir bölgəsi, xüsusən strateji Naxçıvan qalası ən yüksək səviyyədə müdafiə olunur və istənilən təhdidin qarşısını almağa qadirdir.

Vətən müharibəsində və lokal antiterror tədbirlərində xüsusi peşəkarlıq və qəhrəmanlıq göstərən komando birləşmələrinin Naxçıvanda genişləndirilməsi regionda sülhün, sabitliyin və təhlükəsizliyin ən etibarlı təminatçısıdır. Əlahiddə Ümumqoşun Ordunun müasir silah və hərbi texnika ilə təchiz edilməsi, şəxsi heyətin döyüş hazırlığının yüksəldilməsi Naxçıvanın müdafiə səddini keçilməz edir.

### Müasir Azərbaycanın strateji uğuru

Azərbaycan Prezidentinin Naxçıvana növbəti səfəri bir daha göstərdi ki, muxtar respublikanın inkişafı kompleks və uzunmüddətli xarakter daşıyır. Bu səfər Naxçıvanın növbəti onilliklər üçün inkişaf xəritəsinin müəyyən olunması deməkdir. İdarəetmədə hüquqi və struktur islahatları, "yaşıl enerji" layihələri, müasir sənaye zonasının yaradılması, sosial mənzil tikintisi, nəqliyyat-logistika infrastrukturunun yenilənməsi və hərbi qüdrətin artırılması Naxçıvanı Cənubi Qafqazın ən dinamik inkişaf edən regional mərkəzinə çevirir.

Cənab Prezidentin rəhbərliyi ilə icra olunan bu möhtəşəm layihələr Naxçıvanı regionun ən vacib iqtisadi, tranzit və mədəniyyət mərkəzlərindən birinə çevirəcəkdir. Bu inkişaf strategiyası müstəqil Azərbaycanın iqtisadi və siyasi gücünün təntənəsidir.

*Asif ƏSGƏROV,*
*Milli Məclisin deputatı*

# Xankəndi, Ağdərə və Xocalı ilə Rumıniyanın Kluj-Napoka şəhəri arasında əlaqələr qurulur

**Rumıniyada rəsmi səfərdə olan Xankəndi şəhəri, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Prezidentinin xüsusi nümayəndəsi Elçin Yusubovun rəhbərlik etdiyi heyət Kluj-Napoka şəhərinin vitse-meri Dan Ştefan Tarçeya ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, görüşdə Xankəndi şəhəri, Ağdərə və Xocalı rayonları ilə Rumıniyanın ikinci böyük şəhəri Kluj-Napoka arasında əlaqələrin qurulması və inkişafı, birgə layihələrin həyata keçirilməsi, investisiya imkanları və digər qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunub.

Dan Ştefan Tarçeya Kluj-Napokada həyata keçirilən infrastruktur və sosial layihələr, şəhərin inkişafı istiqamətində görülən işlər, habelə inkişaf planları barədə məlumat verib.

Elçin Yusubov, öz növbəsində, təmsil etdiyi bölgədə aparılan işlər barədə danışıb. O, 30 ildən artıq davam edən işğaldan sonra Azərbaycan torpaqlarının Prezident İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu tərəfindən azad edildiyi, doğma yurdlarından didərgin düşmüş qaçqın və məcburi köçkünlərin mərhələli şəkildə öz doğma torpaqlarına qayıtdığı, eləcə də Qarabağın hər bir ərazisində aparılan tikinti, bərpa-quruculuq işləri barədə söz açıb. Elçin Yusubov məhz Azərbaycan tərəfinin təşəbbüsü ilə regionda sülh prosesinin başlandığını, bölgədə davamlı sülh və sabitliyin təmin olunması istiqamətində mühüm addımların atıldığını vurğulayıb. O, Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması, sülh sazişinin imzalanması və regionda dayanıqlı əməkdaşlıq mühitinin yaradılmasının nəinki bütün Cənubi Qafqaz, Avropa, xüsusən Rumıniya ilə ticari və iqtisadi əlaqələrin inkişafı üçün mühüm əhəmiyyət daşıdığını qeyd edib.




Tərəflər qarşılıqlı maraq doğuran məsələlər üzrə əməkdaşlığın gücləndirilməsi, səfərlərin təşkili, təcrübə mübadiləsinin genişləndirilməsi barədə razılığa gəliblər.



# Dövlətin ziyalıya qayğısı dünənə, bu günə və sabaha verilən qiymətdir

**Azərbaycan tarixində ziyalı anlayışı hər zaman xalqın mənəvi yaddaşını qoruyan, cəmiyyətin düşüncə istiqamətlərinə təsir göstərən, milli dəyərləri gələcək nəsillərə çatdıran və dövlətçilik ideyasının ictimai şüurda möhkəmlənməsinə töhfə verən şəxsiyyət anlamı daşıyıb. Bu baxımdan, Azərbaycanda ziyalılara münasibət milli şüurun inkişafının, milli dövlətçilik ənənələrinin mühüm tərkib hissəsidir.**

Prezident İlham Əliyevin ziyalılara münasibəti bu kontekstdə xüsusi əhəmiyyət daşıyır. Həmin münasibətdə çox geniş bir yanaşma - insan əməyinin qiymətləndirilməsi, milli-mədəni irsin qorunması, yaradıcı şəxsiyyətin cəmiyyətdəki statusunun möhkəmləndirilməsi və yeni nəsillərin mənəvi tərbiyəsinə xidmət edən mühitin yaradılması siyasəti dərhal nəzərə çarpır. Bu, Ümummilli Lider Heydər Əliyevin daha da möhkəmləndirdiyi zəngin milli dövlətçilik ənənələrimizin davamıdır. Prezident İlham Əliyev bu xoş ənənələri yeni dövrün tələblərinə uyğun davam etdirir, ziyalılara diqqətini heç zaman əsirgəmir.

2019-cu ildə Prezident İlham Əliyevin və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın mədəniyyət və incəsənət xadimləri ilə geniş görüşü bu baxımdan tarixi faktdır. Həmin görüşdə ziyalıların mənzil, sosial təminat, yaradıcılıq imkanları, teatrların və digər mədəniyyət müəssisələrinin vəziyyəti ilə bağlı məsələlər də müzakirə olunmuşdu. Dövlətimizin başçısı tərəfindən görkəmli mədəniyyət xadimləri və gənc istedadlar üçün yaşayış imkanlarının yaradılması, yazıçılar üçün Yaradıcılıq Evinin bərpası kimi konkret məsələlər üzrə göstərişlərin verilməsi diqqətin praktik məzmununu nümayiş etdirir, ölkəmizdə ziyalıya qayğının sosial, institusional və yaradıcılıq dəstəyi ilə tamamlandığını göstərirdi.

Azərbaycan ziyalılarına diqqət və qayğıdan söhbət gedərkən ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın fəaliyyəti xüsusi qeyd olunmalıdır. Mehriban xanımın bu sahədə fəaliyyəti milli-mədəni irsin qorunması, Azərbaycan mədəniyyətinin beynəlxalq miqyasda tanıdılması, klassik irsin müasir dövrdə təbliği, yaradıcı insanlara dəstək və digər istiqamətlərə yönəlmişdir. Heydər Əliyev Fondunun layihələri ziyalılar üçün xüsusi əhəmiyyət daşıyır. Mehriban xanımın təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən bir çox layihə cəmiyyətdə ziyalıları ön plana çıxarır, onların ictimai həyatda aktiv iştirakını təmin edir və nüfuzunu yüksəldir.

## Ziyalı vətəndaş, unudulmaz şair

Ölkə rəhbərliyinin ziyalılara münasibətini aydın təsəvvür etmək üçün bu günlər dünyasını dəyişmiş Xalq şairi Nəriman Həsənzadəyə ali səviyyədə göstərilən diqqət böyük bir örnək sayıla bilər.

Nəriman Həsənzadə Azərbaycan ədəbiyyatının bütöv bir dövrünü öz yaradıcılığında yaşadan sənətkarlardan idi. Onun yaradıcılığında Vətən, milli yaddaş, tarix, insan, mənəvi dəyərlər və azadlıq ideyaları mühüm yer tutur. Böyük sənətkarın yaradıcılığı Azərbaycan ədəbiyyatında milli düşüncə ilə fərdi duyğuların, tarixlə müasirliyin, insan taleyi ilə zamanın qarşılıqlı əlaqəsini əks etdirən zəngin poetik irsdir. Şairin poeziyasının əsas gücü insanı özünə, keçmişinə, Vətəninə və mənəvi dəyərlərinə yenidən nəzər salmağa çağırmasındadır. Bu baxımdan N. Həsənzadənin yaradıcılığı bir şairin fərdi ədəbi irsindən də çox, ümumilikdə Azərbaycan insanının duyğu və düşüncə dünyasının poetik ifadəsidir. Onun poeziya dünyasında Azərbaycan həm keçmişin yaddaşı, həm bu günün reallığı, həm də gələcəyin xoşbəxt diyarıdır.

Nəriman Həsənzadənin insan mövzusuna yanaşması da çox həssas və özünəməxsusdur. Sevgi, ayrılıq, sədaqət, dostluq, vicdan, ömür və zaman kimi ümumbəşəri mövzular onun yaradıcılığında milli poetik düşüncə ilə qovuşur. Bu baxımdan onun şeirləri yalnız müəyyən dövrün hadisələrini əks etdirmir, insanın dəyişməyən mənəvi suallarına da cavab axtarır.

Şairin yaradıcılığında həmçinin tarixə və şəxsiyyətlərə müraciət mühüm yer tutur. O, "Nəriman", "Atabəylər", "Zümrüd quşu", "Nuru Paşa", "Pompeyin Qafqaza yürüşü" və başqa əsərlərində tarixi hadisə və obrazlar vasitəsilə keçmişlə bu gün arasında mənəvi əlaqə yaradır, oxucunu milli yaddaş üzərində düşünməyə sövq edir. Bu xüsusiyyət Nəriman Həsənzadənin poeziyasına həm milli, həm də fəlsəfi məzmun qazandırır.

Mərhum şairin yaradıcılığının başqa bir mühüm xüsusiyyəti dilinin axıcılığı və emosional təsir gücüdür. O, ən mürəkkəb fikirləri belə, təbii, anlaşıqlı və poetik ifadələrlə çatdırmağa nail olur. Buna görə onun əsərlərində həm yüksək ədəbi-estetik dəyər, həm də geniş oxucu auditoriyasına təsir edən səmimiyyət var. Nəriman Həsənzadə təkcə şair kimi deyil, dramaturq, publisist, alim, pedaqoq və ictimai xadim kimi də Azərbaycanın ədəbi-mədəni həyatında öz nəcib izlərini qoymuşdur.

Prezident İlham Əliyevin digər ziyalılarımız kimi Nəriman Həsənzadənin yaradıcılığına münasibəti də illər ərzində ardıcıl xarakter daşıyıb. Dövlətimizin başçısı 2016-cı ildə şairin 85 illik yubileyi münasibətilə göndərdiyi təbrik məktubunda onun Azərbaycan poeziyasının çoxəsrlik ənənələrini davam etdirən, folklor və klassik ədəbiyyatın imkanlarından yararlanan sənətkar olduğunu vurğulamışdır. 2021-ci ildə - Nəriman Həsənzadənin 90 illik yubileyi münasibətilə Prezidentin təbrikində isə şairin yaradıcılığındakı Vətən məhəbbəti, milli azadlıq duyğuları, ənənəvi dəyərlərə bağlılıq və mənəvi ucalıq kimi keyfiyyətlər xüsusi qeyd olunmuşdur. Prezident onun ictimai fəaliyyətini də "ziyalı vətəndaş mövqeyi" kimi qiymətləndirmişdir.

Nəriman Həsənzadəyə göstərilən diqqətin ən mühüm məqamlarından biri isə məhz onun ömrünün son dövrünə təsadüf edir. 2026-cı il fevralın 18-də - 95 illik yubileyində Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva Nəriman Həsənzadəyə birgə təbrik ünvanladılar. Təbrikdə onun milli ədəbiyyatın çoxəsrlik ənənələrinə sadiq qalaraq Azərbaycan poeziyasına verdiyi töhfələr, tarixi hadisələri və böyük şəxsiyyətləri milli dövlətçilik ruhunda canlandırması, alim, pedaqoq və ictimai xadim kimi fəaliyyəti xüsusi vurğulanırdı. Elə həmin gün Prezidentin sərəncamı ilə Nəriman Həsənzadə Azərbaycan mədəniyyətinin inkişafında müstəsna xidmətlərinə görə Azərbaycanın ən yüksək ali mükafatı olan "Heydər Əliyev" ordeni ilə təltif edildi. Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev dövlət başçısının tapşırığı ilə şairin evində ziyarətdə oldu və "Heydər Əliyev" ordenini ona təqdim etdi.

Bütün bu məqamların mənəvi əhəmiyyəti çox böyükdür. 95 yaşlı şairin yaradıcılıq irsinə verilən yüksək qiymət ölkənin ali rəhbərliyi səviyyəsində göstərilən nümunədir: insanın dövlət və xalq qarşısındakı xidmətləri yaşından, fəaliyyətinin intensivliyindən asılı olmayaraq unudulmur. Bu hadisə həm də ziyalılara dövlət qayğısının yalnız rəsmi protokol çərçivəsində qalmadığını göstərir.

Nəriman Həsənzadənin Prezident İlham Əliyevin yürütdüyü siyasətə münasibəti də bu qarşılıqlı mənəvi bağın başqa bir tərəfini göstərir. 2020-ci ilin Vətən müharibəsindəki tarixi Zəfərimizdən, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, ordumuzun gücü ilə torpaqlarımızın işğaldan azad edilməsindən sonra yazdığı bir çox şeirdə Nəriman Həsənzadə Qarabağ Zəfərini, dövlət başçısının siyasi iradəsini və xalqımızın qələbə əzmini ifadə etmişdir.

## Milli düşüncənin daşıyıcıları

Beləliklə, Nəriman Həsənzadə nümunəsində dövlətin ziyalıya münasibətinin bir neçə mərhələsini izləyirik: yaradıcılığın qiymətləndirilməsi, yubileylərin yüksək səviyyədə qeyd olunması, fəxri təltiflər, şəxsi diqqət və ən başlıcası - sənətkarın mənəvi irsinin dövlət səviyyəsində qorunması.

Eyni yanaşmanı biz görkəmli şairlərimiz Səməd Vurğuna, Məmməd Araza, Bəxtiyar Vahabzadəyə, Qabilə, unudulmaz bəstəkarımız Tofiq Quliyevə, dünyaşöhrətli musiqi xadimlərimiz Rəşid Behbudova, Müslüm Maqomayevə, Qara Qarayevə, Niyaziyə, Azərbaycan rəssamı Tahir Salahova və onlarla belə ziyalı şəxsiyyətimizə müanasibətdə də görürük. Bu münasibət onu da göstərir ki, böyük ziyalıların həyatdan köçməsi onların dövlət və xalq qarşısındakı xidmətlərinin də sona çatması demək deyil. Belə şəxsiyyətlərin irsinin yaşadılması ilə onların mənəvi xidmətləri davam edir və bu, şəxsiyyətlərə əbədiyyət ömrü qazandırır.

Ziyalılara diqqət məsələsində ən mühüm meyarlardan biri münasibətin davamlı olmasıdır. Eyni sistemli yanaşma ümumilikdə mədəniyyət xadimləri ilə bağlı dövlət təltiflərində, onlara fərdi təqaüdlərin, fəxri adların verilməsində, ziyalıların sosial müdafiəsi tədbirlərində özünü göstərir. Ziyalıların, ziyalılığın cəmiyyətdə layiq olduğu ucalıqda qərarlaşması üçün bütün bunlar çox mühümdür.

Azərbaycan cəmiyyətində ziyalılara hörmət ənənəsinin güclü olması həm də onunla bağlıdır ki, xalqımızın tarixində şair, yazıçı, alim və sənətkar çox zaman yalnız öz peşəsinin nümayəndəsi olmayıb, o, milli düşüncənin daşıyıcısı kimi çıxış edib. Prezident İlham Əliyev də milli mədəniyyətə, ədəbiyyata, incəsənətə, ana dilinə gənc nəslin milli ruhda yetişdirilməsində əsas amillər kimi yanaşır. Ziyalılar isə həmin ruhun daşıyıcılarıdır. Bu, əslində, ziyalılara qayğının fəlsəfəsini də izah edir. Dövlət sənətkara yalnız sənət adamının keçmiş xidmətlərinə qiymət vermir, eyni zamanda onun yaratdığı mənəvi dəyərlərin gələcək nəsillərə çatdırılması üçün şərait yaradır. Bu mənada dövlətin ziyalıya münasibəti həm də milli yaddaş siyasətidir.

Bu siyasətin çox böyük ictimai nəticələri var. Dövlətin, dövlət rəhbərliyinin kimə və nəyə yüksək qiymət verməsi cəmiyyətin dəyərlər sisteminə birbaşa təsir göstərir. Dövlət tərəfindən ziyalıya verilən yüksək qiymət, əslində, biliyə, yaradıcılığa, intellektə, mənəvi dəyərlərə və ictimai məsuliyyətə verilən qiymətdir. Bu baxımdan, cənab İlham Əliyevin, Mehriban xanım Əliyevanın ziyalılara münasibəti həm də cəmiyyət üçün bir növ nümunədir. Dövlət öz siyasəti ilə göstərir ki, cəmiyyətin inkişafında iqtisadi nəticələr, maddi uğurlarla yanaşı, intellektual və mənəvi kapital da mühüm əhəmiyyət daşıyır. Bu yanaşma uzunmüddətli perspektivdə cəmiyyətin prioritetlərini dəyişə, uğurun və nüfuzun meyarlarını zənginləşdirə bilər.

## Gənc nəsil üçün nümunə

Ziyalılara dövlət səviyyəsində göstərilən diqqətin ən mühüm nəticələrindən biri isə onun gənc nəslə verdiyi mesajdır. Gənc insan cəmiyyətin hansı dəyərləri mükafatlandırdığını müşahidə etməklə öz gələcək davranış və seçimlərini müəyyənləşdirir. Əgər gənc nəsil görürsə ki, uzun illər ərzində elmə, təhsilə, ədəbiyyata, incəsənətə və ictimai fəaliyyətə xidmət etmiş insanların əməyi dövlət tərəfindən yüksək qiymətləndirilir, onda intellektual fəaliyyətin və yaradıcı əməyin ictimai statusu yüksəlir.

Bu baxımdan, dövlət təltifləri, Prezident mükafatları, fərdi təqaüdlər, fəxri adlar, görkəmli elm və mədəniyyət xadimləri ilə keçirilən görüşlər, onlara ali səviyyədə göstərilən qayğı nümunələri həm də gənc nəsil üçün sosial örnəklər yaratmaq mexanizmidir. Beləliklə, ziyalıya göstərilən diqqət yalnız bir şəxsin mükafatlandırılması ilə başa çatmır, həmin mükafatın yaratdığı simvolik təsir daha geniş auditoriyaya yayılır.

Dövlət səviyyəsində alim, müəllim, yazıçı, şair, bəstəkar, rəssam və digər yaradıcı insanların əməyinin yüksək qiymətləndirilməsi göstərir ki, cəmiyyət üçün dəyər yaradan fəaliyyətin müxtəlif formaları var. Bu, gənclərin dünyagörüşündə mühüm dəyişiklik yarada bilər. Elm öyrənmək, kitab oxumaq, tədqiqat aparmaq, yeni fikir yaratmaq, milli mədəniyyətə töhfə vermək və ictimai məsuliyyət daşımaq da uğurun legitim və nüfuzlu formaları kimi qəbul edilir. Başqa sözlə, ziyalıya münasibət həm də gənc nəslin uğur haqqında təsəvvürlərinin formalaşmasına təsir edən yumşaq sosial siyasət vasitəsidir. Eyni zamanda milli şüurun, dövlətçilik düşüncəsinin davamlığı, müxtəlif nəsillər arasında mənəvi və intellektual varisliyin təmin edilməsidir. Yaşlı nəsil ziyalılar öz təcrübələri, əsərləri və həyat yolu ilə müəyyən dəyərləri gənclərə ötürürlər. Ölkə rəhbərliyi isə bu ziyalıların irsini qorumaqla həmin varisliyin institusional əsaslarını möhkəmləndirir. Beləliklə, bir tərəfdə tarixi yaddaşın daşıyıcıları, digər tərəfdə həmin yaddaşı qəbul edən gənc nəsil durur. Dövlətin ziyalılara diqqəti bu iki nəsil arasında əlaqənin möhkəmlənməsinə xidmət edir.

Azərbaycan Prezidenti İlham Əliyevin ziyalılara diqqət və qayğısı cəmiyyətin dəyər sistemində biliyin, mənəviyyatın, yaradıcılığın və milli məsuliyyətin mövqeyini möhkəmləndirərək bu dəyərlər üzərində formalaşan nəsli dövlətçilik ənənələrinin ən etibarlı daşıyıcısına çevirir.

*İradə ƏLİYEVA, "Azərbaycan"*

# Prezident İlham Əliyevin müsahibəsində səsləndirdiyi fikirlər beynəlxalq medianın diqqət mərkəzindədir

**Prezident İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Azərbaycan Televiziyasına müsahibəsində səsləndirdiyi fikirlər beynəlxalq medianın diqqət mərkəzində qalmaqdadır.**













AZƏRTAC xəbər verir ki, Avropanın bir sıra media qurumları dövlətimizin başçısının Azərbaycanın elektrik enerjisi ixracını genişləndirmək və Avropa bazarına çıxmaq niyyəti barədə fikirlərinə geniş yer verib.

Çexiya Dövlət Televiziyası - CT24, Bolqarıstanın "Banker", "3E-News", Bosniya və Herseqovinanın Serb Respublikasının Xəbər Agentliyi (SRNA) və "Provjereno.info", Ukraynanın maliyyə və biznes sahəsində yayımlanan "Fixygen.ua" və "Open4Business" nəşrləri, Yunanıstanın Dövlət Yayım Korporasiyası (ERT News), iqtisadiyyat və biznes sahəsində xəbərlər yayan "Oikonomikos Tachydromos" (Ot.gr) nəşrlərinin materiallarında Azərbaycanın neft və qazla yanaşı, elektrik enerjisini də Avropa bazarına çıxarmaq niyyəti diqqətə çatdırılıb. Xəbərlərdə mövcud elektrik bağlantılarının Gürcüstan və Türkiyə üzərindən keçdiyi, gələcəkdə isə yeni ötürmə xətlərinin və sualtı kabel layihələrinin imkanların genişləndirilməsinə xidmət edəcəyi bildirilir.

Xarici media Prezident İlham Əliyevin Azərbaycanın Ermənistana elektrik enerjisi ixrac edə bilməsi və Azərbaycandan Naxçıvana Ermənistan üzərindən elektrik xəttinin çəkilməsi ilə bağlı açıqlamalarını da geniş işıqlandırıb. Bu mövzuya əsasən Səudiyyə Ərəbistanında yayımlanan və Yaxın Şərqin aparıcı ingilis dilli nəşrlərindən olan "Arab News" nəşri, habelə "Ahval.sa" portalı, Bolqarıstanın Dövlət İnformasiya Agentliyi (BTA), "Novini247.bg", "Fakti.bg" nəşrləri, Fransada maliyyə və iqtisadiyyat sahələrində aparıcı nəşrlərdən olan "Boursorama.com" portalı, Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) "Nabd" xəbər platforması, Rusiyanın "RusCable.ru", "Russia Today" kanalının ərəbdilli versiyası, "The Moscow Times", "News.ru", Dünya Enerji İcmalı (MEO.ru) kimi media qurumları diqqət ayırıb. Məqalələrdə dövlətimizin başçısının Ermənistandan keçməklə Naxçıvana elektrik xəttinin (LEP) çəkilməsi layihəsinin artıq hazır olması barədə açıqlaması diqqətə çatdırılıb. Həmçinin Prezident İlham Əliyevin bu xəttin hətta böhran vəziyyətlərində Ermənistanın enerji sisteminin sabitliyinə də kömək edə və bu ölkəyə elektrik enerjisi təminatı yarada biləcəyi fikri xüsusi vurğulanıb.

İranın "Təsnim", "Mashregh News", "Akharin Khabar" agentliklərinin materiallarında isə Azərbaycan Prezidentinin Zəngəzur dəhlizi və İran ərazisindən Naxçıvana dəmir yolu bağlantısı ilə bağlı fikirləri ön plana çəkilib. Məqalələrdə bu nəqliyyat əlaqələrinin Azərbaycanın prioritetləri sırasında olduğu qeyd edilir. Rusiyanın "Ritm Eurasia" nəşri də Prezident İlham Əliyevin Naxçıvanın gələcəkdə regional nəqliyyat və enerji habına çevrilə biləcəyinə dair fikirlərini diqqətə çatdırıb.

Prezident İlham Əliyevin müsahibədə səsləndirdiyi fikirlər qonşu Gürcüstan mediası tərəfindən xüsusilə diqqətdə saxlanılır. Dövlətimizin başçısının Ermənistandakı Metsamor Atom-Elektrik Stansiyasının bağlanmasının zəruriliyi barədə fikirləri Gürcüstanın "Interpress News" və "News Hub" portalları tərəfindən geniş işıqlandırılıb. Bu xəbərlərdə Azərbaycan Prezidentinin Ermənistandakı köhnəlmiş Metsamor Atom-Elektrik Stansiyasının fəaliyyəti ilə bağlı xəbərdarlığına yer verilib. Gürcüstan nəşrləri Prezident İlham Əliyevin stansiyanın köhnəldiyi və bütün regiona böyük ekoloji və təhlükəsizlik riski yaratdığı üçün tezliklə bağlanmalı olduğu barədə fikirlərini oxucuların diqqətinə çatdırıb.

Gürcüstan "1TV.ge", "Resonance Daily", "Prime Time", "Bizzone.info", "Sputnik Georgia" nəşrlərinin materiallarında dövlətimizin başçısının Azərbaycanın Avropaya elektrik enerjisi ixracında Gürcüstan və Türkiyə ərazisindəki mövcud marşrutun əhəmiyyəti, habelə regiondakı nəqliyyat və enerji əlaqələri ilə bağlı fikirləri diqqətə çatdırılıb.

Bu ölkənin "JAM News" nəşri isə Prezident İlham Əliyevin Naxçıvan səfəri və müsahibəsinə dair daha geniş icmal təqdim edib. Materialda Naxçıvanda sənaye parkının yaradılması, günəş və istilik-elektrik stansiyaları, regionun enerji potensialı, Zəngəzur dəhlizi, nəqliyyat infrastrukturu və Naxçıvanın gələcəkdə regional nəqliyyat və enerji habına çevrilməsi perspektivləri əksini tapıb.

Rusiyanın "Interfax", "Kommersant", "RIA Novosti", "The Moscow Times", "News.ru", "RusCable" və "Vestnik Kavkaza" kimi media qurumlarının materiallarında əsasən dövlətimizin başçısının elektrik enerjisinin ixracı, Azərbaycan-Naxçıvan elektrik bağlantısı, regional nəqliyyat layihələri və Azərbaycanın Avropa enerji bazarında rolunu genişləndirmək niyyəti ilə bağlı açıqlamalarına yer verilib.

Beləliklə, Prezident İlham Əliyevin müsahibəsində Azərbaycanın enerji ixracı, Naxçıvanın enerji və nəqliyyat imkanlarının genişləndirilməsi, Zəngəzur dəhlizi və regional əməkdaşlıqla bağlı səsləndirdiyi fikirlər müxtəlif ölkələrin media məkanında geniş əks-səda doğurmaqda davam edir.



# Mədəniyyət



## Zamanın vicdanı olmaq Bəxtiyarlıqdır



**Azərbaycan ədəbiyyatının elə simaları var ki, onların yaradıcılığı təkcə bədii söz hadisəsi deyil, xalqın milli yaddaşının və tarixi özünüdərk prosesinin ayrılmaz hissəsidir. Belə sənətkarlar yaşadıqları dövrün hüdudlarını aşaraq zamanın fövqünə yüksəlir, bütöv bir xalqın düşüncə tərzinə istiqamət verirlər. Onların yaratdıqları əsərlər kitab səhifələrində qalmır, nəsildən-nəslə ötürülərək milli şüurun formalaşmasına xidmət edir. Azərbaycan poeziyasının qüdrətli nümayəndəsi, Xalq şairi Bəxtiyar Vahabzadə də məhz belə söz nəhənglərindəndir.**

Bəxtiyar Vahabzadənin böyüklüyü tutduğu vəzifələr, aldığı fəxri adlar və mükafatlarla ölçülə bilməz. Onun böyüklüyü sözün məsuliyyətini dərk edən sənətkar olmasındadır. O, poeziyanı nə şöhrət qazanmaq vasitəsi, nə də yalnız estetik zövq mənbəyi hesab edirdi. Şair üçün şeir xalq qarşısında mənəvi məsuliyyət idi. Elə buna görə də yaradıcılığındakı hər misra düşünülmüş fikir, hər bədii obraz isə xalqın taleyi ilə bağlı dərin məna daşıyır.

İlk baxışda sadə görünən Bəxtiyar Vahabzadə poeziyasının arxasında böyük fəlsəfi dərinlik var. Onun poetik dünyasında heç bir obraz təsadüfi deyil. Şair dağa baxanda yalnız dağ deyil, Vətənin əzəmətini, çinarda xalqın əsrlərə söykənən kökünü, bayraqda dövlət rəmzindən daha artıq - millətin şərəf və ləyaqətini görürdü. Ana dili onun üçün, sadəcə, ünsiyyət vasitəsi deyil, xalqın tarixini, mədəniyyətini və milli ruhunu yaşadan müqəddəs yaddaş idi. Vətən coğrafiya anlayışını aşaraq mənəvi kimliyə, azadlıq isə siyasi termin olmaqdan çıxaraq insan ləyaqətinin ən ali ifadəsinə çevrilirdi. Buna görə də Bəxtiyar Vahabzadənin yaratdığı hər poetik obraz zahirdə göründüyündən qat-qat böyük məna yükü daşıyır.

B.Vahabzadə heç vaxt hadisələri, sadəcə, təsvir etməklə kifayətlənməyib, eyni zamanda görünən hadisələrin arxasında gizlənən həqiqəti axtarıb, oxucunu düşünən insan kimi formalaşdırmağa çalışıb. Məhz buna görə də o, yalnız böyük şair deyil, həm də milli təfəkkürün formalaşmasına təsir göstərən mütəfəkkir sənətkardır. Onun poeziyasında hər misra oxucunu düşündürür, hər fikir insanı öz vicdanı ilə üz-üzə qoyur. Ədəbiyyat tarixində elə sənətkarlar var ki, onların poeziyasında əsas qəhrəman sevgi, təbiət və ya fərdi hisslərdir. Bəxtiyar Vahabzadənin yaradıcılığında isə əsas qəhrəman vicdandır. Onun əsərlərində vicdan insanın daxili hakimi, mənəvi ölçüsü və əxlaqi meyarıdır. Şair göstərir ki, insanın taleyini də, millətin gələcəyini də, dövlətin qüdrətini də məhz mənəvi məsuliyyət müəyyənləşdirir. Buna görə də B.Vahabzadə poeziyasında "mən" anlayışı şəxsi hisslərin ifadəsi olmaqdan çıxaraq bütöv bir xalqın taleyinin rəmzinə çevrilir.

Şairin poeziyasında türk dünyası ideyası da xüsusi yer tutur. O, bu ideyanı siyasi şüar kimi deyil, ortaq tarixə, mədəniyyətə və mənəvi dəyərlərə söykənən təbii birlik kimi təqdim edir. Bu baxımdan, Vahabzadənin azərbaycançılıq fəlsəfəsi milli dəyərlərlə bəşəri humanizmi qarşı-qarşıya qoymur. Əksinə, o, öz milli kimliyinə sadiq olan xalqın başqa xalqların da mənəvi dəyərlərinə hörmət etmək bacarığını göstərir. Bu ideyanın poetik ifadəsi kimi şair yazır:

*Bir millətik, iki dövlət*
*Eyni arzu, eyni niyyət*
*Hər ikisi Cümhuriyyət*
*Azərbaycan-Türkiyə.*

Məhz bu xüsusiyyət Bəxtiyar Vahabzadənin yaradıcılığını bütövlükdə türk dünyasının mənəvi sərvətinə çevirir.

Ana dili Bəxtiyar Vahabzadə üçün xalqın keçmişi ilə gələcəyini birləşdirən mənəvi körpü idi. O yaxşı anlayırdı ki, dilini qoruyan xalq öz tarixini də, mədəniyyətini də, dövlətçilik ənənələrini də qoruyacaq. Elə buna görə də onun dil haqqında yazdığı əsərlər bu gün də aktuallığını itirmir. Qloballaşmanın sürətləndiyi müasir dövrdə Vahabzadənin bu çağırışları əvvəlkindən daha böyük əhəmiyyət daşıyır və milli kimliyin qorunması baxımından mühüm mənəvi dəyər kimi səslənir. Ana dili Bəxtiyar Vahabzadənin yaradıcılığında milli varlığın əsas dayaqlarından biri idisə, tarixi yaddaş həmin varlığın keçmişlə gələcək arasında qırılmaz körpüsü idi. Şair anlayırdı ki, xalq öz tarixini unutduğu gün mənəvi bütövlüyünü də itirməyə başlayır. Buna görə də onun əsərlərində tarix yalnız keçmişi xatırlatmaq məqsədi daşımır, tarix bu günü dərk etməyin və gələcəyi qurmağın mənəvi məktəbinə çevrilir. Bəxtiyar Vahabzadə ana dilini xalqın tarixi yaddaşının ən etibarlı daşıyıcısı hesab edir. Onun fikrincə, xalqın qəhrəmanlıq salnaməsi, zəngin mədəniyyəti, milli-mənəvi dəyərləri və şərəfli keçmişi məhz ana dilində yaşayır, nəsildən-nəslə ötürülür. Şair bu düşüncəsini böyük poetik ustalıqla belə ifadə edir:

*Səndə mənim xalqımın qəhrəmanlıqla dolu*
*Tarixi varaqlanır,*
*Səndə neçə minillik mənim mədəniyyətim,*
*Şan-şöhrətim saxlanır.*
*Mənim adım-sanımsan,*
*Namusum, vicdanımsan!*

Bu misralarda ana dili təkcə ünsiyyət vasitəsi kimi deyil, xalqın tarixi yaddaşını, milli qürurunu və mənəvi bütövlüyünü yaşadan müqəddəs bir dəyər kimi təqdim edilir.

Bəxtiyar Vahabzadənin yaradıcılığının mühüm xüsusiyyətlərindən biri onun çoxşaxəliliyidir. O, təkcə qüdrətli şair deyildi, həmçinin dramaturq, publisist, ədəbiyyatşünas alim və pedaqoq kimi də Azərbaycan mədəniyyətinin inkişafına mühüm töhfələr verib.

Ədibin dramaturgiyası da poeziyası qədər dərin ictimai-fəlsəfi məzmun daşıyır. "Vicdan", "İkinci səs", "Fəryad", "Dar ağacı", "Muğam", "Özümüzü kəsən qılınc", "Ağlar-güləyən", "Atılmışlar" və digər əsərlərində müəllif insanın daxili aləmi ilə cəmiyyət arasında mürəkkəb münasibətləri araşdırır. Bu əsərlərin qəhrəmanları yalnız səhnə obrazları deyil, zamanın mənəvi dilemmasını yaşayan insanlardır. B.Vahabzadə onların timsalında oxucu və tamaşaçını hazır cavablarla deyil, düşündürücü suallarla üz-üzə qoyur. Elə buna görə də onun dramaturgiyası bu gün də öz aktuallığını qoruyur.

Bu dramaturji irsdə xüsusilə "Vicdan" pyesi diqqəti cəlb edir. Əsərdə vicdan yalnız ayrı-ayrı qəhrəmanların mənəvi keyfiyyəti kimi deyil, insanın bütün həyatını müəyyənləşdirən ali əxlaqi meyar kimi təqdim olunur. Müəllif göstərir ki, həqiqət qarşısında məsuliyyət hissini itirən insan cəmiyyət qarşısında da öz mənəvi dayağını itirir. Təsadüfi deyil ki, şairin poeziyasında aparıcı ideyalardan biri olan vicdan anlayışı dramaturgiyasında da eyni fəlsəfi dərinliklə davam etdirilir. Bu baxımdan, "Vicdan" pyesi Bəxtiyar Vahabzadənin bədii dünyasında poeziya ilə dramaturgiyanı birləşdirən mühüm ideya körpüsü təsiri bağışlayır.

Bəxtiyar Vahabzadənin publisistikası da xüsusi diqqətə layiqdir. Onun məqalələrində emosional pafosdan daha çox sağlam məntiq, tarixi yaddaş və milli məsuliyyət hissi üstünlük təşkil edir. O, ictimai hadisələrə, sadəcə, münasibət bildirmir, onların mahiyyətini açmağa çalışır, milli maraqları hər zaman ön planda saxlayırdı. Publisistik yazılarında da şair qələminə xas olan cəsarət, prinsipiallıq və vətəndaş mövqeyi aydın hiss olunur.

Hər böyük sənətkarın yaradıcılığında sözsüz ki, onun dünyagörüşünü, vətəndaş mövqeyini və xalq qarşısındakı missiyasını dolğun ifadə edən bir əsər olur. Bu əsər zaman keçdikcə müəllifini də aşaraq bütöv bir xalqın mənəvi sərvətinə çevrilir. Bəxtiyar Vahabzadənin yaradıcılığında belə bir əsər "Gülüstan" poemasıdır. Bu poema yalnız yüksək poetik məharətin məhsulu deyil, həm də milli yaddaşın oyanışı, tarixi həqiqətin cəsarətli bədii ifadəsi və parçalanmış Vətənin taleyinə ucaldılmış söz abidəsidir. Azərbaycan ədəbiyyatında tarixin bu qədər açıq, eyni zamanda bu qədər yüksək bədii səviyyədə ifadə olunduğu əsərlər çox azdır. Poema həm sənətkarlıq, həm də vətəndaş cəsarəti baxımından milli poeziyamızın ən möhtəşəm nümunələrindəndir.

Bəxtiyar Vahabzadə XIX əsrdə imzalanmış "Gülüstan" müqaviləsinin Azərbaycan xalqının taleyində açdığı dərin yaranı, sadəcə, tarixi fakt kimi təqdim etmir. O, həmin hadisənin xalqın milli yaddaşında yaratdığı ağrını poetik düşüncənin süzgəcindən keçirərək ümummilli faciənin bədii salnaməsinə çevirir. Buna görə də poema tarix dərsi deyil, xalqın uzun illər dilə gətirə bilmədiyi nisgilin poetik etirafıdır. Əsərin yazıldığı dövrə nəzər saldıqda onun əsl böyüklüyü daha aydın görünür. Sovet ideologiyasının sərt nəzarəti şəraitində Azərbaycanın parçalanmış taleyindən danışmaq, Arazın hər iki tayında yaşayan eyni xalqın mənəvi birliyini xatırlatmaq, tarixi həqiqətləri bədii dillə ifadə etmək böyük cəsarət tələb edirdi. Bəxtiyar Vahabzadə bu məsuliyyətdən çəkinmədi. O, sözün qüdrəti ilə susdurulmaq istənilən tarixi yaddaşı oyatdı və göstərdi ki, xalqın keçmişini unutdurmaq mümkün deyil. Bu tarixi həqiqətin poetik ifadəsi kimi müəllif "Gülüstan" poemasında belə səslənirdi:

*"Qoyulan şərtlərə razıyıq deyə,*
*Tərəflər qol çəkdi müqaviləyə...*
*Tərəflər kim idi?*
*Hər ikisi yad!*
*Yadlarmı edəcək bu xalqa imdad?!"*

Bu çağırış illər keçsə də, öz qüvvəsini itirmədi, əksinə, zaman keçdikcə daha böyük məna qazandı. Çünki xalqın mənəvi yaddaşında yaşayan ideyalar nə zamanın sınağından sınır, nə də tarixin tozlu səhifələrində itib-batır. Onlar öz məqamını gözləyir, tarix isə gec-tez həmin çağırışlara cavab verir. Bəxtiyar Vahabzadənin "Gülüstan" poemasında ifadə olunan fikir də məhz belə bir taleyi yaşadı. Şair Vətənin parçalanmasına etirazını yalnız bir dövrün ağrısı kimi ifadə etmirdi, eyni zamanda gələcək nəsillərə milli yaddaşı qorumağın vacibliyini xatırladır, xalqın mənəvi birliyinin heç vaxt itirilməməli olduğunu söyləyirdi. Onun yaratdığı bədii obrazlar təkcə keçmişin deyil, gələcəyin də məsuliyyətini daşıyırdı. Poemada səslənən məşhur misralar bu gün də öz təsir gücünü qoruyur:

*"Bəs hanı bu əsrin öz Koroğlusu -*
*Qılınc Koroğlusu, söz Koroğlusu?"*

Belə də oldu. Azərbaycan xalqı XXI əsrdə öz mərd oğullarını yetişdirdi. Vətən sevgisini, milli ləyaqəti və dövlətçilik ənənələrini yaşadan nəsillər formalaşdı. Bu mənəvi iradə 44 günlük Vətən müharibəsində özünün ən parlaq təcəssümünü tapdı. Azərbaycan Ordusunun qəhrəman əsgər və zabitləri misilsiz igidlik göstərərək uzun illər işğal altında qalmış torpaqlarımızı azad etdilər. Bu Zəfər yalnız hərbi qələbə deyildi, həm də xalqın milli birliyinin, dövlətin siyasi iradəsinin və cəmiyyətin mənəvi gücünün təntənəsi idi. Döyüş meydanında qazanılan uğurlar siyasi və diplomatik müstəvidə aparılan məqsədyönlü fəaliyyətlə tamamlandı. Azərbaycanın haqq səsi beynəlxalq tribunalarda ardıcıl və prinsipial şəkildə müdafiə olundu, ölkəmizin mövqeyi beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanaraq dünya ictimaiyyətinə çatdırıldı. Müharibə təkcə səngərlərdə deyil, informasiya məkanında və diplomatik platformalarda da aparılırdı. Buna görə də qazanılan Zəfər hərbi uğur olmaqla yanaşı, siyasi və diplomatik qələbə kimi də tarixə yazıldı. 2023-cü ildə Azərbaycanın bütün ərazisində dövlət suverenliyinin tam bərpa olunması isə müstəqillik tariximizin mühüm hadisələrindən biri oldu. Bununla ölkəmizin beynəlxalq hüquqla tanınmış ərazilərində konstitusiya quruluşu tam təmin edildi və Azərbaycan dövlətçiliyinin inkişafında yeni mərhələ başlandı. Əgər Bəxtiyar Vahabzadə bu günləri görə bilsəydi, yəqin ki, yenə də yalnız qələbənin sevincini ifadə etməklə kifayətlənməzdi, xalqı yeni məsuliyyətə səsləyərdi. Çünki onun yaradıcılığında Zəfər son nöqtə yox, yeni mərhələnin başlanğıcıdır. O bilirdi ki, torpaqları azad etmək nə qədər müqəddəsdirsə, həmin torpaqlarda milli ruhu, ana dilini, mənəvi dəyərləri və tarixi yaddaşı yaşatmaq da bir o qədər müqəddəs vəzifədir.

Bu gün görkəmli şairin yaradıcılığı universitetlərdə elmi araşdırmaların mövzusudur, pyesləri səhnələrdən düşmür. Amma Bəxtiyar Vahabzadənin ən böyük abidəsi nə kitabları, nə tamaşaya qoyulan əsərləri, nə də adına keçirilən yubiley tədbirləridir. Onun ən möhtəşəm abidəsi xalqın qəlbində yaşayan sözü, milli düşüncəyə bəxş etdiyi mənəvi güc və vətəndaşlıq məktəbidir. Bu mənəvi bağlılıq şairin aşağıdakı misralarında da öz əksini tapır:

*Vətən bizsiz də keçinər, keçinmərik biz Vətənsiz.*
*Bu məramla boy atmışıq Çənlibellər üstündə biz.*
*Şəhidlərin qanı ilə yoğrulubdur torpağımız,*
*Qəlbimizdə dalğalanır öz üçrəngli bayrağımız.*

Şairin yaradıcılığına nəzər saldıqca bir həqiqət daha aydın görünür: Bəxtiyar Vahabzadə öz dövrü üçün yazmırdı, o, gələcək nəsillərlə danışırdı. Elə buna görə də şairin əsərləri illər keçdikcə köhnəlmir, əksinə, zaman dəyişdikcə yeni məna qazanır. Çünki dəyişən dövrlər olsa da, insanın vicdanı, Vətən sevgisi, ana dilinə bağlılığı, milli ləyaqəti və mənəvi məsuliyyəti heç vaxt köhnəlmir. Məhz buna görə Bəxtiyar Vahabzadənin poeziyası ölməzdir. O, bizə yalnız keçmişi xatırlatmağı öyrətmir, həm də bu günü məsuliyyətlə yaşamağı, gələcəyi isə milli birlik, dövlətçilik düşüncəsi və mənəvi bütövlük üzərində qurmağı təlqin edir. Böyük sənətkarların missiyası da elə budur - onlar öz dövrlərinin hadisələrini yazmaqla gələcəyin mənəvi xəritəsini cızırlar. Belə sənətkarlar zamanı izləyən insanlar olmurlar, zamanın özünü formalaşdırırlar.

Bəxtiyar Vahabzadə də məhz belə şəxsiyyətlərdən idi. Onun qələmi ilə yazılan hər misra xalqın mənəvi yaddaşına həkk olunmuş düşüncə salnaməsidir. Elə buna görə də Bəxtiyar Vahabzadə təkcə XX əsr Azərbaycan poeziyasının böyük nümayəndəsi deyil, dünənin, bu günün və sabahın milli vicdanıdır.

Zaman dəyişir, nəsillər yenilənir, hadisələr tarixə çevrilir. Lakin xalqın mənəvi dayaqlarını yaşadan söz əbədiyyət qazanır. Bəxtiyar Vahabzadənin sözü də məhz belə sözlərdəndir. O, milli düşüncəmizdə, dövlətçilik təfəkkürümüzdə, ana dilimizə məhəbbətimizdə və Vətənə sədaqət hissimizdə yaşayır. Yaşadıqca da xalqımızın mənəvi yoluna işıq salır. Və bir daha sübut edir ki, zamanın vicdanı olmaq Bəxtiyarlıqdır.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

## Xalqın adamı

**Azərbaycanda kitab işi və poliqrafiya sahəsinin inkişafında misilsiz xidmətlər göstərmiş və bu sahəyə böyük yeniliklər gətirmiş, özündən sonra yaddaşlarda dərin iz qoymuş tanınmış şəxsiyyətlərdən biri də Əjdər Xanbabayevdir. O, yaxınlarının, doğmalarının, bir sözlə, onu tanıyanların yaddaşında cəsarətli, prinsipial və uzaqgörən bir ziyalı kimi qalıb.**



Əjdər Xanbabayev Azərbaycan SSR Mətbuat, Poliqrafiya və Kitab Ticarəti Dövlət Komitəsi sədrinin birinci müavini vəzifəsində işləyərkən qısa müddət ərzində 10 cildlik "Azərbaycan Ensiklopediyası" tamamlanmış, 50 cildlik "Dünya uşaq ədəbiyyatı", Azərbaycan dilində "Dünya ədəbiyyatı kitabxanası"nın ilk 30 cildi, Azərbaycan və rus dillərində 20 cildlik "Azərbaycan klassik ədəbiyyatı kitabxanası" çapdan çıxmışdır. Bunlardan əlavə, onun rəhbərliyi altında Nizami Gəncəvinin, həmçinin Azərbaycanın başqa dahi şairlərinin əsərləri xarici dillərdə nəşr olunmuşdur.

Sadə olduğu qədər dəyərli bir ömür yolu keçmiş Əjdər Rza oğlu Xanbabayev 1931-ci ildə Ordubadda dünyaya göz açmışdı. Uşaqlığı çətinliklər içində keçmişdi. Ehtiyac üzündən o, rayondakı fəhlə-gənclər məktəbində oxumaqla yanaşı, həm də işləyərək ailəsinin dolanışığına kömək etmişdi. Məktəbi yüksək göstəricilərlə bitirdikdən sonra ali təhsil almaq üçün Bakıya üz tutmuşdu. Hazırlığı yüksək olduğuna görə, elə birinci cəhddə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Şərqşünaslıq fakültəsinə qəbul olmuşdu. Üçüncü kursda oxuyanda dövrünün ən yüksək təqaüdü olan Stalin təqaüdü almışdı.

Əjdər Xanbabayev universiteti bitirdikdən sonra 1956-cı ildən Azərbaycan SSR Elmlər Akademiyasının nəzdində fəaliyyət göstərən "Elm" nəşriyyatında redaktor vəzifəsində əmək fəaliyyətinə başlamışdı. Qısa müddət ərzində bacarığı sayəsində baş redaktor vəzifəsinə yüksəlmişdi. 1960-cı ildə isə həmin nəşriyyatın direktoru vəzifəsinə təyin edilmişdi. O, bu vəzifədə 1972-ci ilə qədər işləmişdi. Sonralar "Azərnəşr" və "Yazıçı" nəşriyyatlarının direktoru olmuşdu. 1986-cı ildə Azərbaycan SSR Mətbuat, Poliqrafiya və Kitab Ticarəti Dövlət Komitəsi sədrinin birinci müavini vəzifəsinə irəli çəkilmişdi. Bu vəzifələrdə çalışdığı illər ərzində Əjdər Xanbabayev milli kitab nəşriyyatının inkişafına, həmçinin mədəni-maarif layihələrinin həyata keçirilməsinə dəyərli töhfələr vermişdi.

Xalqına böyük sevgi və məhəbbətlə xidmət göstərən Əjdər Xanbabayevin ürəyində milli kitab nəşriyyatının inkişafı ilə bağlı həyata keçirəcəyi hələ çox planları var idi. Təəssüflər olsun ki, 1990-cu il mayın 30-da Əjdər Xanbabayev Azərbaycan Rus Dram Teatrının binası yaxınlığında şəxsi avtomobilində namərd gülləsinə tuş gəldi. Həmin günlər 20 Yanvar faciəsindən çox zaman ötməmişdi. Xalq hələ də göz yaşları içində bu faciənin ağrı-acılarını yaşayırdı. Bax, belə bir zamanda Əjdər Xanbabayevə silah tuşlanmışdı.

Əjdər Xanbabayevin sui-qəsd nəticəsində öldürülməsi yalnız Azərbaycan ədəbi ictimaiyyəti, dost-tanışları, doğmaları üçün deyil, bütövlükdə cəmiyyətimiz üçün ağır itki oldu. Onun qətli bölgələrdə də böyük həyəcan, hiddətlə qarşılandı.

Xalqın içindən çıxmış xalqın adamı olan Əjdər Xanbabayevin bacarığı və istedadı sayəsində işıq üzü görmüş kitabları sadalamaq üçün saatlar bəs etməz. 20 Yanvar faciəsindən bəhs edən "Qara yanvar" kitabı Əjdər Xanbabayevin rəhbərliyi ilə qısa müddətdə işıq üzü gördü. İmperiyanın iti caynaqlarının şəhərimizi qana buladığı həmin günlərdə bu mövzuda kitab çap etdirmək naşirdən böyük cəsarət tələb edirdi. Çünki kitabda keçmiş ittifaqın qanlı əməlləri ifşa olunurdu. O vaxtlar şəhərdə fövqəladə vəziyyət elan olunmuş, komendant saatı tətbiq edilmişdi. Haradansa xəbər tutan hərbçilər kitabın nəşr olunmasının qarşısını almaq üçün Əjdər Xanbabayevin iş otağında və mətbəədə dəfələrlə axtarışlar aparmışdılar.

Əjdər Xanbabayev Ulu Öndər Heydər Əliyevin alovlu tərəfdarı idi. Ümummilli Liderin Azərbaycanı düşdüyü ağır bəlalardan xilas edəcəyinə ürəkdən inanırdı. Ona görə də bir mədəniyyət xadimi, bir vətəndaş kimi bu dahi şəxsiyyətin respublikamıza yenidən rəhbərlik etməsini istəyirdi. Odur ki, Heydər Əliyevin Azərbaycana qayıtması üçün yorulmaq bilmədən mübarizə aparırdı. Siyasi hadisələrin gərginləşdiyi 1990-cı ildə Heydər Əliyevi açıq-açığına dəstəkləmək cəsarət tələb edirdi.

Azərbaycanın görkəmi ziyalıları, tanınmış insanları Əjdər Xanbabayevi həmişə xoş təəssüratlarla xatırlayırlar. Sovet İttifaqı Qəhrəmanı, akademik Ziya Bünyadovun sözləridir: "Əgər Azərbaycanda yüksək intellektə və geniş dünyagörüşünə malik 5-6 nəfər varsa, onlardan biri də Əjdər Xanbabayev idi".

Xalq yazıçısı Çingiz Abdullayevin xatirələri ilə tanış olduqca Əjdər Xanbabayevi daha da yaxından tanıyırıq. Görkəmli yazıçı deyir ki, Əjdər Xanbabayev poliqrafiya sənayemizin, nəşriyyat işimizin tanınmış ağsaqqalı sayılırdı: "Mən Xanbabayevin necə işlədiyini gördüm. Sanki vaxtının az olduğunu hiss edirmiş kimi, demək olar ki, istirahət etmirdi. Xarici nəşriyyatların pavilyonlarına gedir, onlara Azərbaycan müəlliflərinin kitablarını təklif edir, danışıqlar aparırdı. Bu, ədəbiyyatımızın əsl fədaisi və vətənpərvəri idi".

1993-cü il iyunun 15-də Ümummilli Lider Heydər Əliyev xalqın təkidli tələbi ilə ikinci dəfə Azərbaycana rəhbərlik etməyə başladı. Görkəmli ziyalı Əjdər Xanbabayevin arzuları həyata keçdi. İndi onun ruhu şaddır. Çünki xalqın içindən çıxmış xalqın adamının övladları, nəvələri azad, müstəqil, daim inkişafda olan, dünyada böyük nüfuz qazanmış, güclü, qüdrətli bir Azərbaycanda yaşayırlar.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

## Ailə ənənəsi, Şuşa musiqi mühiti və Üzeyir bəy məktəbi

**Azərbaycan peşəkar musiqi sənətinin inkişafında özünəməxsus xidmətləri olan sənətkarlardan biri də bəstəkar, pedaqoq, musiqi redaktoru Nazim Əliverdibəyovdur. Onun yaradıcılıq yolu Şuşanın zəngin musiqi mühiti, məşhur nəslin sənət ənənələri və Azərbaycan peşəkar musiqisinin böyük məktəbindən keçib.**



Əliverdibəyovlar Şuşanın tanınmış nəsillərindən olub. Nazim Əliverdibəyovun atası Ağalar bəy Şuşa qəzasının Pərioğlular kəndində dünyaya göz açıb, uşaqlığı Şuşa şəhərində keçib. Ağalar bəyin babası Əliverdi bəy Hüseyn bəy oğlu Mehdiqulu xanın Ağdam üzrə darğası idi. Atası, Xan qızı Xurşudbanu Natəvanın süd qardaşı Kərbəlayı Ələkbər bəy Ağdamın dövlətli mülkədarlarından olub.

Ağalar bəy Əliverdibəyov dövrünün mükəmməl Avropa təhsili almış mütərəqqi ziyalılarından idi. Peterburq Texnoloji İnstitutunu, daha sonra Varşava İnşaat İnstitutunu bitirib, 1913-cü ildə vətənə qayıtdıqdan sonra Bakı şose yolları idarəsində mühəndis vəzifəsində çalışıb. Ancaq onun fəaliyyət dairəsi yalnız mühəndisliklə məhdudlaşmayıb. Ağalar bəy mahir muğam bilicisi kimi tanınıb, Asəf Zeynallı adına Bakı Musiqi Texnikumunun xanəndəlik sinfində dərs deyib.

Şuşanın zəngin musiqi mühiti hələ uşaqlıq illərindən Ağalar bəyin bir musiqişünas kimi formalaşmasına mühüm təsir göstərmişdi. O, muğamın sirlərini dayısı Mir Baba Mir Abdulla oğlu Vəzirovdan öyrənmişdi.

Ağalar bəy bacısı Şirin xanımın oğlu Üzeyir bəy Hacıbəylinin ilk müəllimi olub. O, gələcək dahi bəstəkarın qəlbində xalq musiqisinə və muğam sənətinə böyük məhəbbət oyadıb.

Ağalar bəy Məhbubə xanım Abbas bəy qızı Uğurlubəyova ilə ailə qurub. Bu nikahdan Nazim, Rasim, Kazım adlı oğulları və Nüşabə adlı qızı dünyaya gəlib. Belə bir ailə mühiti onların da sənət seçiminə təsir göstərib. Nazim bəstəkar, Rasim skripkaçı, Kazım dirijor, Nüşabə isə pianoçu olublar.

Nazim Əliverdibəyov 1926-cı il avqustun 24-də Kislovodsk şəhərində dünyaya göz açıb. Ailəsi ilə Bakıya köçdükdən sonra mükəmməl musiqi təhsili alıb. Onillik musiqi məktəbində, Bakı Musiqi Texnikumunda oxuyub. Hələ onillik musiqi məktəbinin buraxılış imtahanında bəstələdiyi pyeslərdən birini ifa edən Nazim Əliverdibəyov istedadı ilə diqqəti cəlb edib.

O, təhsilini Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının Bəstəkarlıq fakültəsində davam etdirib. 1952-ci ildə professor Cövdət Hacıyevin sinfini bitirib.

Nazim Əliverdibəyov ömrünün böyük hissəsini pedaqoji işə həsr edib. Onun sənət yolunda bəstəkarlıq qədər pedaqoqluq da mühüm yer tutub. N.Əliverdibəyov 1951-1985-ci illərdə Bülbül adına Orta İxtisas Musiqi Məktəbində və Azərbaycan Dövlət Konservatoriyasında dərs deyib. 1964-1985-ci illərdə Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin direktoru vəzifəsində çalışıb.

O, yaradıcılığında müxtəlif musiqi janrlarına müraciət edib. Əsərləri arasında uşaqlar üçün "Cırtdan" nağıl-operası, "Nazxanım naz eləyir" musiqili komediyası, "Muğam" xoreoqrafik lövhələri, iki balet süitası, "Mingəçevir" simfonik poeması, xalq çalğı alətləri orkestri üçün "İçərişəhər" musiqi lövhələri, silsilə romanslar, kamera-instrumental və xor əsərləri, teatr tamaşaları və kinofilmlər üçün yazılmış musiqilər xüsusi yer tutur.

Bəstəkarın "Qəhrəmanlıq" simfonik orkestr üçün uvertürası, "Balet süitası", "Rəqs süitası", violonçel ansamblı və simfonik orkestr üçün "Skertso" kimi əsərləri də onun yaradıcılığının dəyərli nümunələrindəndir. "Bayatı-Şiraz" muğamının kapella xor üçün işlənməsi isə bəstəkarın milli musiqi irsinə yaradıcı münasibətini və orijinal yanaşmasını nümayiş etdirir. O, həm də orqan üçün "Bayatı-Şiraz", "İçərişəhər lövhələri", kanon üzrə bəstələnmiş elegiya və digər əsərlərin müəllifidir.

Nazim Əliverdibəyov bir sıra filmlər üçün musiqilər yazıb. O, "Bizim küçənin oğlanları", "Çarvadarların izi ilə", "Göllərin tacı", "Gilas ağacı", "Mənim Xəzərim", "Vulkana doğru", "Münəccimin şagirdi" və "Yaxşı qurtardıq" ekran əsərlərinin bəstəkarı, "Üzeyir ömrü" filminin isə musiqi redaktoru olub.

Onun Üzeyir bəy Hacıbəylinin irsinin qorunması və gələcək nəsillərə çatdırılması istiqamətində fəaliyyəti ayrıca qeyd edilməlidir. Nazim Əliverdibəyov Üzeyir bəy Hacıbəylinin "Əsli və Kərəm" və "Leyli və Məcnun" operalarını yenidən orkestrləşdirib, "Leyli və Məcnun" və "Koroğlu" operalarının nəşr edilmiş partituralarının musiqi redaktoru olub.

Əliverdibəyovlar ailəsinin sənət ənənəsi Nazim Əliverdibəyovun timsalında davam və inkişaf edib. Atası Ağalar bəyin muğam və musiqişünaslıq sahəsində qazandığı zəngin təcrübə, Şuşanın musiqi mühiti və Üzeyir bəy Hacıbəyli məktəbi onun yaradıcılıq dünyasında mühüm yer tutub.

Nazim Əliverdibəyov 1986-cı il fevralın 16-da Bakıda vəfat edib.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

Azərbaycan Dəmir Yolları QSC

# "AZƏRBAYCAN DƏMİR YOLLARI" QAPALI SƏHMDAR CƏMİYYƏTİ

Azərbaycan dəmir yollarının enerji təchizatı, işarəvermə və rabitə sistemlərinin yenidən qurulması (Biləcəri-Yalama) layihəsi üzrə layihənin idarəedilməsi məsləhət xidmətləri ilə bağlı (ARESTP-CS-QCBS-02)

## MARAQLARIN İFADƏSİ ÜÇÜN DƏVƏT

Azərbaycan Respublikası Hökuməti "Azərbaycan dəmir yollarının enerji təchizatı, işarəvermə və rabitə sistemlərinin yenidən qurulması (Biləcəri-Yalama) layihəsi"nin (Layihə) maliyyələşdirilməsi üçün kredit əldə etmək məqsədilə Asiya İnkişaf Bankına (AİB) müraciət etmişdir. Kredit vəsaitinin bir hissəsi layihənin idarəedilməsi üzrə məsləhət xidmətləri müqaviləsi çərçivəsində uyğun ödənişlərin həyata keçirilməsi üçün nəzərdə tutulmuşdur.

Layihə "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti (ADY) tərəfindən icra ediləcəkdir.

Layihə ADY-nin beynəlxalq yük daşımalarına xidmət göstərən Azərbaycanın şimal - cənub və şərq - qərb dəmir yolu dəhlizlərinin əsas komponentləri olan Biləcəri - Yalama və Bakı - Böyük Kəsik dəmir yolu hissələri boyunca 25 kV-luq dəyişən cərəyanlı enerji təchizatı, işarəvermə və rabitə sistemlərinin modernləşdirilməsini nəzərdə tutan daha geniş proqramın tərkib hissəsidir.

Proqram çərçivəsində həyata keçirilən ilk layihə, regional yük daşımalarını dəstəkləyən "Şimal - Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi daxilində əsas bağlantı olan Biləcəri - Yalama dəmir yolu hissəsini əhatə edir. Bu hissə təxminən 192 km uzunluğunda ikixətli dəmir yolu xəttindən və 15 stansiyadan ibarətdir.

Layihə çərçivəsində AİB tərəfindən maliyyələşdirilən və ADY tərəfindən həyata keçirilən layihələrin idarə edilməsinə dəstək göstərmək məqsədilə Layihənin İdarə Edilməsi üzrə məsləhətçinin cəlb edilməsi razılaşdırılmışdır. Məsləhətçi həmçinin, ehtiyac yarandıqda, ADY-nin Layihənin İcra Qrupunun və ya Qruplarının əməkdaşları üçün ixtisaslaşdırılmış təlimlər təşkil etməklə ADY-nin institusional potensialının gücləndirilməsinə də dəstək göstərəcəkdir. Bu təlimlər satınalma, tikintiyə texniki nəzarət və monitorinq, mühəndislik, ekoloji və sosial təhlükəsizlik, maliyyə idarəetməsi, müqavilələrin və layihələrin idarə edilməsi kimi sahələri əhatə edəcəkdir. Məsləhətçi həmçinin layihələrin icrası ilə bağlı bütün məsələlər üzrə ADY, AİB və digər maraqlı tərəflər üçün hesabatlar hazırlamalıdır.

Layihənin idarə edilməsi üzrə məsləhət xidmətləri müqaviləsinin müddətinin 54 ay təşkil edəcəyi nəzərdə tutulur. Məsləhət xidmətlərinin müfəssəl əhatə dairəsi aşağıda təqdim olunan keçiddə yerləşdirilən maraqların ifadəsi üçün dəvətə əlavə olunmuş texniki tapşırıqda ətraflı şəkildə verilmişdir.

Maraq ifadəsi üzrə dəvət 14 avqust 2026-cı il tarixində AİB-in Məsləhətçilərin İdarəetmə Sistemində (CMS) beynəlxalq səviyyədə dərc edilmişdir. Maraq ifadələrinin təqdim edilməsi üçün son tarix 12 sentyabr 2026-cı ildir.

**AİB-in uyğun mənbə ölkələrindən iştirak hüququ olan məsləhətçi şirkətlər öz maraqlarını aşağıda göstərilən link vasitəsilə ifadə edə bilərlər:**

**https://selfservice.adb.org/OA_HTML/adb/xxcrs/jsp/ADBCsrnFwd.jsp?sel=226863**



Azərbaycan Dəmir Yolları QSC

# "AZERBAIJAN RAILWAYS" CLOSED JOIND STOCK COMPANY

## REQUEST FOR EXPRESSION OF INTERESTS FOR

ARESTP-CS-QCBS-02, Project Management Consulting Services for "Azerbaijan Railways Electrification, Signaling and Telecommunication Project (Bilajari-Yalama)"

The Government of Azerbaijan Republic has applied for a loan from the Asian Development Bank (ADB) to finance the Azerbaijan Railways Electrification, Signaling and Telecommunication Project (Bilajari-Yalama) ("the Project"). Part of the loan proceeds is intended to be used for eligible payments under the contract for project management consulting services for the Project.

The Project will be implemented by "Azerbaijan Railways" Closed Joint Stock Company ADY).

The Project forms part of a wider programme to modernize 25 kV AC electrification and signaling and telecommunications systems along the railway sections Bilajari–Yalama and Baku–Boyuk Kesik, which are key elements of Azerbaijan's north–south and east–west rail corridors serving ADY's international freight operations.

This first project under the programme covers the Bilajari–Yalama section, a key link within the International North–South Transport Corridor (INSTC) supporting regional freight transit. The section comprises approximately 192 km of double track and 15 stations.

Under the Project, it has been agreed to engage a Project Management Consultant (PMC) to support in the management of the projects ADB-financed projects implemented by ADY. The PMC will also build ADY's capacity through job training and other specialized training for ADY's Project Implementation Unit(s) (PIU) when needed, including procurement, construction monitoring and maintenance, engineering, environmental and social safeguards, financial management, contract and project management. The PMC shall also prepare reports for the ADY, the ADB and other stakeholders on all matters concerning project implementation.

The total duration of the project management consultancy services contract is expected to be 54 months. The detailed scope of the PMC services is provided in the Terms of Reference attached to the Request for Expression of Interest in the link provided below.

The Request for Expression of Interest was published internationally on ADB's Consultant Management System (CMS) on 14 August 2026. The deadline for the submission of Expression of Interests is 12 September 2026.

**Eligible consulting firms from ADB's eligible source countries may express their interest via the link provided below:**

**https://selfservice.adb.org/OA_HTML/adb/xxcrs/jsp/ADBCsrnFwd.jsp?sel=226863**



## BİLDİRİŞ

"İpək Yolu Sığorta" ASC (VÖEN 9900002671) öz daimi fəaliyyət ünvanının dəyişdiyini elan edir.

***Cəmiyyətin yeni ünvanı:***

**Bakı şəhəri, AZ 1014, Rəsul Rza küçəsi 75, Winter Park Plaza, 8-ci mərtəbə, ofis 802**


BEYNƏLXALQ HƏYAT

# MKİ İsrailin Trampa qarşı "İranın sui-qəsdi" iddiasına şübhə ilə yanaşır

**Mərkəzi Kəşfiyyat İdarəsi (MKİ) NATO sammitindən sonra ABŞ Prezidentinə qarşı potensial təhlükə ilə bağlı İsrailin təqdim etdiyi kəşfiyyat məlumatlarına şübhə ilə yanaşır. Həmin məlumatlar Ankarada fövqəladə və məxfi uçuş əməliyyatına səbəb olmuşdu.**



"Washington Post" qəzetinin məlumatına görə, ABŞ kəşfiyyat rəsmiləri ötən ay Donald Trampın Türkiyədən dönüşü zamanı qeyri-adi təhlükəsizlik tədbirlərinin görülməsinə gətirib çıxaran "İranın sui-qəsd planı" barədə İsrailin hesabatına şübhə ilə yanaşırlar. Kəşfiyyat məlumatları ilə tanış olan MKİ analitiklərinin İsrail tərəfindən verilən informasiyanı kifayət qədər əsaslı saymadığı və bu şübhələrini Tramp administrasiyasının rəsmilərinə çatdırdığı bildirilir. "The Post" qəzeti xəbər verir ki, ABŞ rəsmilərindən biri hesabatı "mənbəyi ABŞ deyil, İsrail olan və etibarlılıq dərəcəsi aşağı qiymətləndirilən sənəd" kimi xarakterizə edib.

İyulun 8-də NATO sammitindən sonra Trampın Ankaradan gözlənilməz şəraitdə ayrılması geniş rezonans doğurmuşdu. Məlumata görə, Qətərdən hədiyyə edilən yeni "Boeing 747-8" təyyarəsinin təhlükəsizlik standartları ilə bağlı narahatlıqlar yaranandan sonra Prezident məxfi şəkildə müdafiə nazirinin təyyarəsinə keçirilib. D.Tramp hava limanındakı əsas prezident təyyarəsindən qida təminatı maşını vasitəsilə gizlicə "C-32A" hərbi təyyarəsinə mindirilib. Daha sonra onun və məhdud sayda köməkçilərinin yer aldığı təyyarə "F-16" qırıcılarının müşayiəti ilə Böyük Britaniyadakı Mildenholl Hərbi Hava Qüvvələri bazasına uçub.

Ağ Ev bununla bağlı suallara birbaşa cavab verməyib. ABŞ rəsmisi Prezidentin İran da daxil olmaqla, çoxsaylı təhdidlərlə üzləşdiyini və onu qorumaq üçün bütün lazımi tədbirlərin görüldüyünü bildirib. Vurğulanıb ki, Prezidentin qeyd etdiyi kimi, o, İran da daxil olmaqla, həyatına dair çoxsaylı təhdidlərlə üzləşib və onun təhlükəsizliyini təmin etmək üçün hər cür tədbir görülüb. ABŞ Kəşfiyyat İdarəsinin əsas vəzifəsi Prezidenti qorumaqdır və bunu edib.

# İtaliyada silah zavodunda partlayış olub

**Roma yaxınlığındakı Kolleferro şəhərində "KNDS Ammo Italy" şirkətinin quru və hərbi-dəniz qüvvələri üçün silah-sursat istehsal edən zavodunda güclü partlayış baş verib.**




İlkin məlumatlara görə, partlayış barıt presləmə sexində baş verib. Zavodda qısa müddət əvvəl yanğın baş verib və yanğınsöndürənlər polisin müşayiəti ilə alovun qarşısını alıblar. "Corriere della Sera" qəzetinin yazdığına görə, xəsarət alanlar və itkin düşənlər barədə məlumat daxil olmayıb. Şəhər meri Culio Kalamita jurnalistlərə bildirib ki, hadisə zamanı zavod, demək olar ki, tamamilə boş olub.

"KNDS Ammo Italy" Fransa-Almaniya müdafiə konserninin bir hissəsidir. Digər ölkələrlə yanaşı, Ukraynaya da silah tədarük edən şirkətin 100-dən çox döyüş sistemi hazırda Ukrayna Silahlı Qüvvələrinin xidmətindədir. Konqlomeratın törəmə şirkəti olan "KNDS Ukraine" Ukraynada fəaliyyət göstərir - avadanlıqlarını təmir edir və servis xidməti göstərir, ehtiyat hissələri və artilleriya mərmiləri istehsal edir.

Bu, son bir həftə ərzində baş verən ikinci analoji hadisədir. Avqustun 10-da Bolqarıstanın Belitsa kəndi yaxınlığındakı EMCO müəssisəsində də yanğın baş verib. Yük maşını alovlandıqdan sonra yanğın sursat anbarına yayılıb və daha sonra partlayış olub. Şirkət 2014-cü ildən bəri Ukraynaya mərmi və silah tədarük edir. Xəsarət alan olmayıb.

EMCO sahibi Emilian Gebrev iddia edir ki, Rusiya Baş Kəşfiyyat İdarəsinin agentləri onu 2015-ci ilin yazında zəhərləməyə cəhd ediblər. O dövr aparılan araşdırma nəticəsində sui-qəsd cəhdində zəhərli "Noviçok" maddəsindən istifadə edildiyi müəyyən olunub. İş adamı özü hadisəni Ukraynaya silah təchizatı və Rusiyanın onun silah biznesinə ehtimal olunan marağı ilə əlaqələndirib.

***Hazırladı: Rizvan CƏFƏROV, "Azərbaycan"***



# Bilmək istəyirəm

*Mənzil almışam, amma əvvəlki ev sahibinin ailə üzvləri hələ də həmin ünvanda qeydiyyatdadır və çıxmaq istəmirlər. Bu halda nə edə bilərəm?*

***Mətləb ZAMANOV, Xırdalan şəhəri***

✓ Sualınıza cavab olaraq bildiririk ki, mənzil mülkiyyətinizə keçdikdən sonra prioritet məsələlərdən biri həmin şəxslərin yaşayış sahəsindən istifadə hüququna xitam verilməsi və onların qeydiyyatdan çıxarılmasıdır.

Nəzərə alınmalıdır ki, alqı-satqı müqaviləsi bağlandıqdan və mülkiyyət hüququnuz Daşınmaz Əmlakın Dövlət Reyestrində dövlət qeydiyyatına alındıqdan sonra siz həmin əmlakın tamhüquqlu mülkiyyətçisi hesab olunursunuz.

Təcrübə göstərir ki, adətən tərəflər arasında mənzilin alqı-satqısına dair bağlanmış müqavilədə satıcı (keçmiş mülkiyyətçi), eləcə də mənzildə qeydiyyatda olan şəxslər (keçmiş mülkiyyətçinin ailə üzvləri və s.) mənzilin satışından sonra müəyyən müddət çərçivəsində qeydiyyatdan çıxmaq barədə müvafiq öhdəlik götürürlər. Lakin belə bir öhdəliyin yerinə yetirilməməsi, yaxud alqı-satqı müqaviləsində sözügedən məsələnin öz əksini tapmaması halları da istisna edilmir.

Keçmiş mülkiyyətçinin ailə üzvlərinin qeydiyyatdan çıxmaqdan imtina etməsi hüquqi müstəvidə həll olunan məsələdir. Belə ki, Azərbaycan Respublikasının Konstitusiyasına görə, mülkiyyət toxunulmazdır, dövlət tərəfindən müdafiə olunur, o cümlədən mülkiyyətçinin öz əmlakına sahiblik, ondan istifadə etmək və onun barəsində sərəncam vermək hüququ vardır. Bununla yanaşı, Azərbaycan Respublikasının Mülki Məcəlləsinə görə, mülkiyyət hüququ - subyektin qanunla nəzərdə tutulmuş hədlərdə əmlaka öz mülkiyyəti kimi sahib olmaq, ondan istifadə etmək və onun barəsində sərəncam vermək hüququdur.

Siz mülkiyyətçi olaraq əmlakınızın hər bir pozuntudan müdafiəsini tələb edə bilərsiniz. Əgər mülkiyyət hüququ sahiblikdən məhrum edilmə ilə əlaqədar olmayan başqa üsullarla pozularsa, mülkiyyətçi pozuntunun aradan qaldırılmasını müqəssirdən tələb edə bilər. Sabiq mülkiyyətçinin ailə üzvlərinin evdə qeydiyyatda qalması və ya orada yaşaması sizin mülkiyyət hüququnuzun tam həcmdə həyata keçirilməsinə maneə yaradır.

Vaxtınıza qənaət etmək və əlavə xərclərdən azad olmaq üçün keçmiş mülkiyyətçi ilə aranızda yaranmış mübahisəni ilkin olaraq danışıqlar yolu ilə həll etməyə çalışın. Əgər danışıqlar hər hansı müsbət nəticə verməzsə, o zaman mübahisənin həlli prosesini rəsmi müstəviyə keçirmək lazımdır. Bunun üçün məhkəməyə müraciət etməyiniz tövsiyə olunur. Beləliklə, iddiaçı olaraq cavabdehə (qeydiyyatda olan şəxslərə) qarşı məhkəmədə iddia qaldıra bilərsiniz. Əsas tələblə yanaşı, əgər sizə müəyyən maddi ziyan dəyibsə, onun ödənilməsini, həmçinin psixoloji gərginlik və rahatlığın pozulmasına görə mənəvi ziyanın kompensasiyasını da tələb etmək hüququnuz vardır.

İddia tələbinizin təmin olunması ilə bağlı məhkəmə qətnaməsi sözügedən şəxslərin mülkiyyətinizdə olan mənzildən qeydiyyatdan çıxarılması üçün hüquqi əsasdır.

**Sualı cavablandırdı:**
**Paşa SƏFƏROV,**
**Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü**


**"AAAF-İnşaat" MMC ilə Vüqar Firudin oğlu Abıyev arasında 2014-cü ildə bağlanmış Abşeron rayonu, Xırdalan qəsəbəsi "AAAF-Park" yaşayış massivindəki 25 saylı küçədə inşa edilmiş 8 saylı binanın 15-ci mənzilinə dair müqavilə itdiyi üçün etibarsız sayılır.**


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva xarici işlər nazirinin müavini Elnur Məmmədova atası

**İSRAFİL MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini Elnur Məmmədova atası

**İSRAFİL MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR

**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3307
Sifariş 1035

Qiyməti 60 qəpik